RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 187 (8503) ÇƏRŞƏNBƏ, 16 sentyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Azərbaycan-Türkiyə dostluğu dünyaya nümunədir



Sentyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edərək, 15 sentyabr Bakının işğaldan azad olunmasının 102-ci ildönümü münasibətilə təbriklərini çatdırıb. Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun Azərbaycan Milli Ordusu və könüllülərlə birlikdə Bakını erməni və bolşevik işğalından azad etdiyini qeyd edən dövlətimizin başçısı bu yolda canlarını qurban verən şəhidlərin dərin hörmət və ehtiramla yad edildiyini, onların əziz xatirəsinin daim xalqımızın qəlbində yaşayacağını bildirib.

Prezident İlham Əliyev bu əlamətdar hadisə ilə əlaqədar Prezident Rəcəb Tayyib Ərdoğana təbrik məktubu ünvanladığını diqqətə çatdırıb. Dövlətimizin başçısı qeyd edib ki, əcdadlarımızın əziz xatirəsinə göstərilən sadiqliyin nümunəsi olaraq, 15 sentyabr tarixi bir bayram kimi bu gün də qeyd olunur. Bununla əlaqədar Bakıda və Azərbaycanın müxtəlif bölgələrində tədbirlər keçirilir.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan telefon zənginə görə təşəkkür edərək, Prezident İlham Əliyevə öz təbriklərini çatdırıb və bu münasibətlə dövlətimizin başçısına məktub ünvanladığını bildirib. Türkiyə Respublikasının Prezidenti Bakının işğaldan azad olunmasında Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun və Azərbaycan Milli Ordusunun rolunu qeyd edib.

Dövlət başçıları ölkələrimizin hər zaman bir-birinin yanında olduğunu və bütün məsələlərdə bir-birini dəstəklədiklərini vurğulayıblar.

Telefon danışığı zamanı Bakının azad edilməsinin 100 illiyi münasibətilə iki il əvvəl keçirilmiş hərbi parad da xatırladılıb. Azərbaycan və Türkiyə əsgərlərinin iştirak etdiyi hərbi paradın hər iki ölkənin prezidentləri tərəfindən birgə izlənməsi xoş təəssüratlarla qeyd edilib. Bu gün ölkələrimiz arasında əlaqələrin daha da yüksək səviyyəyə qalxmasından məmnunluq ifadə olunub.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivləri müzakirə edilib.

***Prezidentin Mətbuat Xidməti***



## Övladlarımız milli və vətənpərvərlik ruhunda tərbiyə olunmalıdırlar

- Əziz müəllimlər, tələbələr, şagirdlər.

Mən sizi yeni dərs ili münasibətilə ürəkdən təbrik edirəm. Bu il yeni dərs ili yeni şəraitdə, pandemiya dövründə başlayır. Bunu nəzərə alaraq, yeni dərs ili yeni formatda təşkil ediləcəkdir. Bizim əsas məqsədimiz ondan ibarətdir ki, Azərbaycan xalqını bu bəladan qoruyaq və qəbul edilmiş bütün qərarlar bu məqsədi güdür.

Bildirməliyəm ki, Azərbaycan pandemiyanın ilk günlərindən çox operativ, çevik addımlar ataraq xalqımızı böyük bəladan qurtara bilmişdir. Bildiyiniz kimi, mart ayının əvvəlindən məktəblər, ali məktəblər, bütün təhsil müəssisələri bağlandı və bunun əsas məqsədi uşaqları, yeniyetmələri xəstəlikdən qorumaq idi. Təbii ki, bu, təhsil sahəsinə mənfi təsir göstərmişdir. Ancaq hesab edirəm ki, biz görülmüş tədbirlər nəticəsində pandemiyanın təhsilə olan mənfi fəsadlarının böyük hissəsini aradan qaldıra bildik. Əminəm ki, yeni şəraitdə başlanan dərs ili uğurlu olacaq, bizim şagirdlərimiz, tələbələrimiz yaxşı biliklər alacaqlar, müəllimlər də öz vəzifə borcunu şərəflə yerinə yetirəcəklər.

Biz hazırda postpandemiya dövrünə hazırlaşırıq. Əlbəttə ki, peyvənd icad olunandan sonra artıq biz deyə bilərik ki, bu dövr arxada qalıbdır. Bildiyiniz kimi, Azərbaycan peyvəndin ölkəmizə gətirilməsi ilə əlaqədar bir neçə şirkətlə danışıqlar aparır. Əlbəttə ki, əldə ediləcək peyvənd bütün sınaq mərhələlərindən keçməlidir və eyni zamanda, beynəlxalq sertifikatlar almalıdır. Daha sonra peyvənd Azərbaycana gətiriləcək və əminəm ki, ondan sonra biz normal, adi həyata qayıda bilərik, o cümlədən təhsil sahəsində ənənəvi tədris prosesi bərpa olunacaqdır.

Biz pandemiyanın fəsadlarına, iqtisadi tənəzzülə, neft gəlirlərimizin azalmasına baxmayaraq, məktəb tikintisini, ali məktəblərin tikintisini davam etdirdik, eyni zamanda, bir dənə də sosial layihə ixtisar edilməmişdir.

***Ardı 2-ci səh.***

## Birinci vitse-prezident Mehriban ƏLİYEVA: "Ümid edirəm ki, Azərbaycanın layiqli vətəndaşı olmaq üçün əlinizdən gələni əsirgəməyəcəksiniz"



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bilik Günü münasibətilə məktəbliləri və tələbələri təbrik edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" hesabında bununla bağlı paylaşım edib. Paylaşımda deyilir:

"Əziz məktəblilər və tələbələr!

Sizi yeni dərs ilinin başlanması münasibətilə təbrik edirəm. Ümid edirəm ki, yüksək nəticə əldə etmək və əla qiymətlər almaq, bilikli, savadlı şəxs və Azərbaycanın layiqli vətəndaşı olmaq üçün əlinizdən gələni əsirgəməyəcəksiniz. Hər birinizə möhkəm cansağlığı, gümrahlıq, zehin açıqlığı, əzmkarlıq və öyrənmək həvəsi arzulayıram. Bilik Gününüz mübarək!".

## Heydər Əliyev Fondunun dəstəyi ilə 62 təhsil müəssisəsi istifadəyə verilir

2020-2021-ci tədris ilində Heydər Əliyev Fondunun dəstəyi ilə respublikanın müxtəlif bölgələrində yeni inşa olunan və əsaslı təmir edilən məktəb, eləcə də məktəbəqədər təhsil müəssisələri istifadəyə verilir.

Qeyd edək ki, Heydər Əliyev Fondu fəaliyyətində təhsil sahəsini hər zaman diqqətdə saxlayır, bu sahədə müxtəlif layihələr və proqramlar icra etməklə təhsilin inkişafına öz töhfəsini verir. Fond yeni məktəblərin, məktəbəqədər təhsil müəssisələrinin tikilərək istifadəyə verilməsinə də öz dəstəyini əsirgəmir.

***Ardı 6-cı səh.***

## Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident,
Əziz Qardaşım.

Bu gün biz Bakının işğaldan azad edilməsinin 102-ci ildönümünü qeyd edirik. Həmin dövrün çətinliklərinə baxmayaraq qardaş Türkiyə Azərbaycandan öz yardımını əsirgəmədi. Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusu Azərbaycana gələrək mübarizəyə qoşuldu. Gəncədən Bakıya qədər şərəfli döyüş yolu keçən Qafqaz İslam Ordusu yeni yaradılmış Azərbaycan Milli Ordusu və könüllülərlə birlikdə Bakını erməni və bolşevik işğalından azad etdi. Bu yolda canlarını qurban verən şəhidlərimizi dərin hörmət və ehtiramla yad edirəm. Onların əziz xatirəsi daim bizim qəlbimizdədir.

Azərbaycan xalqı üçün 15 sentyabr olduqca əlamətdar bir gündür. Məhz həmin gün Bakı işğaldan azad edilərək ilk dəfə müstəqil Azərbaycan dövlətinin paytaxtı elan olundu. Bu tarixi qələbədən sonra Qafqaz İslam Ordusunun və Azərbaycan Milli Ordusunun zəfər yürüşü Bakı sakinləri tərəfindən böyük coşqu və sevinclə qarşılandı.

İki il bundan əvvəl həmin coşqu və sevgi Bakı küçələrində bir daha canlandırıldı. Bakının işğaldan azad edilməsinin 100 illiyi münasibətilə keçirilmiş hərbi paradda Azərbaycan və Türkiyə əsgərlərinin iştirakını Sizinlə birlikdə izlədik. Şübhəsiz ki, bu tarixi hadisə həmişə yaddaşlarda qalacaqdır.

Bu gün də Azərbaycan-Türkiyə qardaşlığı və dostluğu bütün dünya üçün bir nümunədir. İyulun 12-də Ermənistanın Azərbaycana qarşı hərbi təxribatına qardaş Türkiyə Respublikası qəti mövqe bildirdi. Sizin Tovuz hadisələri ilə bağlı birmənalı bəyanatlarınızı Azərbaycan xalqı yüksək qiymətləndirir. Azərbaycan da hər zaman qardaş Türkiyənin yanındadır və bütün məsələlərdə öz tərəddüdsüz dəstəyini nümayiş etdirir. Azərbaycan-Türkiyə strateji müttəfiqliyi və tərəfdaşlığı regionda sülhü və təhlükəsizliyi təmin edən, əməkdaşlığın inkişafına töhfə verən mühüm amildir.

Həqiqətən də qardaş və dost ölkələrimizin və xalqlarımızın qarşılıqlı münasibətləri ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarına uyğun olaraq bütün sahələrdə müvəffəqiyyətlə inkişaf edir və genişlənir.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 15 sentyabr 2020-ci il*



## Azərbaycan-Türkiyə münasibətlərinin dünyada analoqu yoxdur

### Hər iki ölkə regionda sabitliyin təminatçısına çevrilib

Azərbaycan və Türkiyə tarixi kökləri, taleyi, milli-mənəvi dəyərləri bir-birini tamamlayan, ortaq siyasi-iqtisadi maraqları olan qardaş ölkələrdir. Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kimi atalar sözünə çevrilmiş müdrik kəlamı ölkələrarası münasibətlərin dərin mənasını bütün mahiyyəti ilə ifadə edir.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dövlətlərarası münasibətlər prosesində atdıqları qətiyyətli addımlar möhkəm təməllərə əsaslanan tarixi qardaşlıq əlaqələrinin uğurla inkişaf etməsinə xidmət göstərir.

***Ardı 5-ci səh.***

## Təhsil milli strategiyanın, ümumi inkişafın vacib sahəsidir

### Prezident İlham Əliyevin yeni dərs ilinin başlanması və Bilik Günü münasibətilə müraciətində bu bir daha vurğulandı

Respublikada son illər aparılan sosial-iqtisadi siyasət nəticəsində dinamik inkişafa nail olunub, əhalinin maddi rifahı xeyli yaxşılaşıb, yoxsulluğun səviyyəsi minimuma endirilib, bir sözlə, Azərbaycan orta gəlirli ölkələr sırasında yer tutub. Keçirilən islahatlar və genişmiqyaslı infrastruktur layihələri sosial-iqtisadi həyatın yenidən qurulması və davamlı inkişafı üçün şərait yaradıb. Milli təhsil sistemində də olan kəmiyyət və keyfiyyət dəyişiklikləri insanların həyatında müstəsna əhəmiyyət kəsb edib.

Müasir dövrün qlobal çağırışları isə onun əhəmiyyətini daha da artıraraq, bu sahədə həlli vacib olan məsələləri dövlətin və cəmiyyətin bir nömrəli prioritetinə çevirir. Çünki müasir dövrdə təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşmasının, fərdin yaşam tərzinin daha yüksək səviyyədə qurulmasının alternativsiz təminatıdır.

Azərbaycan Prezidenti İlham Əliyev yeni dərs ilinin başlanması və Bilik Günü münasibətilə müraciətində qeyd etdi ki, cəmi bir il ərzində 150-yə yaxın məktəb tikilir və əsaslı təmir edilir. Müəllim peşəsinə maraq bərpa olunub və artır, bu da özünü rəqəmlərdə göstərir: "Müəllim peşəsini seçən gənclərimizin sayı hər il artmaqdadır. Qəbul imtahanlarında yüksək bal toplamış bir çox gənclərimiz müəllim olmaq istəyirlər. Çünki müəllimlərin iş şəraiti yaxşılaşıbdır, müəllimlər gözəl məktəblərdə, ali məktəblərdə dərs deyirlər, müəllimlərin əməkhaqları artırılıb və diaqnostik qiymətləndirmədən keçən müəllimlərimiz yüksək maaş alırlar. Əlbəttə ki, bu, gənclərimizin müəllim olmaq istəyini əsaslandırır, eyni zamanda müəllim peşəsi bütün dövrlərdə Azərbaycanda ən hörmətli peşələrdən biri olmuşdur. Mən çox şadam ki, bu gün biz bu peşənin prestijini bərpa edirik və bu, eyni zamanda gələcəkdə Azərbaycanda bilikli, savadlı insanların sayının artmasına gətirib çıxaracaq".

***Ardı 6-cı səh.***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident,
Əziz Qardaşım.

Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunun azərbaycanlı qardaşlarımızla birlikdə Bakını işğaldan azad etməsinin 102-ci ildönümündə bu yolda şəhid olan qəhrəman əsgərlərimizi rəhmət hissi ilə yad edir, qazilərimizi hörmətlə xatırlayıram.

Ölkələrimiz arasındakı "Bir millət, iki dövlət" şüarının tarixi bünövrəsini qoyan Qafqaz İslam Ordusu ortaq qürur mənbəyimiz və əbədi qardaşlığımızın timsalı olmuşdur. Bakıda olduğu kimi, Çanaqqalada da çiyin-çiyinə mübarizə aparan əcdadlarımızdan bizə miras qalan qardaşlığımız bu gün tale birliyimizin də mənəvi zəminini təşkil edir.

Bu gün zati-alinizin qardaşlığımıza layiq səyi və töhfələri ilə Türkiyə və Azərbaycan əlaqələri həm siyasi, həm iqtisadi, həm də hərbi sahədə mükəmməl şəkildə inkişaf edir. Tariximizdən gələn ilham və sarsılmaz əlaqələrimizdən aldığımız güc-qüvvətlə ölkələrimiz regionumuzun sabitliyinin təminatçısına çevrilmişdir.

Türkiyə-Azərbaycan qardaşlığının əbədi davam edəcəyinə, bu günə qədər olduğu kimi, bundan sonra da ölkələrimizin xoş günlərdə də, çətin vaxtlarda da bir-birinin yanında olacağına inamım sonsuzdur.

Fürsətdən istifadə edərək, Zati-alinizə cansağlığı və xoşbəxtlik, dost və qardaş Azərbaycan xalqının gözəl günləri və yüksək rifahının bundan sonra da davam etməsi üçün ən xoş arzularımı bir daha ifadə edirəm.

Hörmətlə,

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

*Ankara, 15 sentyabr 2020-ci il*

## Keçmiş ekoloji fəlakət zonasında yaradılan nəhəng sənaye parkı

### Burada Peşə Təhsil Mərkəzinin fəaliyyətə başlaması iqtisadi inkişafın növbəti göstəricisidir

Azərbaycan sənayesində daha bir ilkə imza atıldı. Ölkədəki sənaye parkında ilk dəfədir Peşə Təhsil Mərkəzi yaradıldı. Sumqayıt Kimya Sənaye Parkında açılan bu mərkəz, ümumiyyətlə, Azərbaycan iqtisadiyyatının inkişaf tendensiyasının növbəti göstəricisidir.

Çünki bununla bir neçə strateji hədəfə nail olunur. Əvvəla, mərkəzin müasir infrastruktura malik olması tələbələrə dövrün tələblərinə uyğun bacarıq və peşə vərdişi qazanmağa imkan verəcək. İkincisi, təlim-tədris prosesində onlara bu bilgiləri elə parkın özünün yüksəkixtisaslı mütəxəssisləri aşılayacaq. Daha bir üstünlük tələbələrin bilavasitə Sumqayıt Kimya Sənaye Parkının müəssisələrində təcrübə keçmək imkanıdır. Nəhayət, onların iş yeri əldə etmək şansı olacaq.

***Ardı 6-cı səh.***

## Ermənistanın şansı azalır

### ATƏT-in Minsk qrupunun mövcud formatı saxlaması münaqişənin həllini uzadır və Qarabağda erməni işğalını davam etdirir

Azərbaycan bu vaxta qədər Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həllində maraqlı olub və bunun üçün də qarşı tərəfə imkan yaradıb. Amma Ermənistan ona verilən şansdan hələ də düzgün istifadə edə bilmir və prosesləri savaşa doğru sürükləyir. Görünən odur ki, işğalçı ölkə ərazilərin azad edilməsi ilə nəticələnəcək hərbi variantla üzləşəcək.

Hadisələrin bu axarda inkişafını qaçılmaz edən daha bir faktor münaqişənin həllində vasitəçilik edən ATƏT-in Minsk qrupunun indiyə qədər Ermənistanın işğal siyasətinə qarşı real addımlar atmamasıdır.

Rusiyalı politoloq Qriqori Trofimçuk da məsələyə eyni prizmadan yanaşır: "Qrup buna qədər danışıqların gedişatına və sürətinə təsir göstərə bilməyibsə, o zaman çətin ki, eyni tərkibdə yaxın gələcək və strateji perspektiv üçün yeni bir şey təklif edə bilsin. Məsələn, bir mütəxəssis kimi hesab edirəm ki, hansısa səbəbdən qrupun tərkibini dəyişdirmək mümkün deyilsə, heç olmasa, bu danışıqlar masasının ətrafında olan mütəxəssislər dairəsi genişləndirilməlidir.

***Ardı 4-cü səh.***

# Övladlarımız milli və vətənpərvərlik ruhunda tərbiyə olunmalıdırlar

*Əvvəli 1-ci səh.*



Bildiyiniz kimi, biz keçən il və bu il vətəndaşlara böyük sosial paket təqdim etdik. Bu il 5 milyona yaxın Azərbaycan vətəndaşı dövlət tərəfindən dəstəkləndi və bu dəstək bu gün də davam etdirilir.

Məktəb tikintisi ilə bağlı deyə bilərəm ki, bu il 147 məktəbin tikintisi nəzərdə tutulur. Onların böyük hissəsi artıq hazırdır və Bilik Gününə hazır vəziyyətə gətirilibdir. Bir neçə məktəbin açılışı bu ilin sonuna qədər nəzərdə tutulur. Onu da bildirməliyəm ki, 147 məktəbin 45-i Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilibdir. Artıq 17 ildir ki, Heydər Əliyev Fondu bu sahədə çox böyük işlər görür. Bildiyiniz kimi, Azərbaycanda yeni məktəblərin tikintisinin geniş vüsət alması Heydər Əliyev Fondu tərəfindən başlanmış "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində həll olunmuşdur.

Son 2-3 il ərzində biz kiçik kəndlərdə modul tipli məktəblər inşa edirik. Bu il modul tipli 60 məktəbin tikintisi təmin edilir və ediləcəkdir. Beləliklə, cəmi bir il ərzində 150-yə yaxın məktəb tikilir və əsaslı təmir edilir. Bildirməliyəm ki, son 17 il ərzində bütövlükdə Azərbaycanda 3700-ə qədər məktəb tikilib və əsaslı şəkildə təmir edilib. Bu, bizim məktəb fondumuzun böyük əksəriyyətini təşkil edir. Çünki Azərbaycanda hazırda 4500-ə qədər məktəb var, onların 3700-ü tam yeni görkəm almışdır və yenidən inşa edilmişdir.

Bu il, eyni zamanda, ali məktəblərin korpuslarının tikintisi təmin edilmişdir. İyun ayında Gəncədə Dövlət Aqrar Universitetinin yeni tədris korpusu mənim iştirakımla istifadəyə verilmişdir. Bu korpusun sahəsi 22 min kvadratmetrdir. Sentyabr ayında isə Azərbaycan Dövlət İqtisad Universitetinin yeni korpusu. Bu korpusun sahəsi 13 min kvadratmetrdir. ADA-nın yeni iki korpusu istifadəyə verilmişdir və bu korpusların sahəsi 35 min kvadratmetrdir. Beləliklə, cəmi bir il ərzində üç ali məktəbin 70 min kvadratmetr sahəsi olan yeni korpusları tikilib. Təbii ki, bu, böyük vəsait tələb edir və biz bu vəsaiti ayırırıq. Çünki təhsilə ayrılan vəsait gələcəyə ayrılan vəsaitdir. Mən hələ 2004-cü ildə demişdim ki, biz "qara qızıl"ı insan kapitalına çevirməliyik və bunu əldə etmişik. Çünki son illərdə Azərbaycanda nəinki təhsilin maddi-texniki bazası möhkəmlənib və bu gün bizim bütün ali məktəblərimiz təmirli binalarda yerləşir, eyni zamanda, təhsilin keyfiyyəti artır. Bu, çox vacib məsələdir və biz bunu müxtəlif sahələrdə görürük. Bizim məktəblilərimiz beynəlxalq olimpiadalarda yüksək yerlər qazanırlar, olimpiadaların qalibləri olurlar. Deyə bilərəm ki, müəllim peşəsinə maraq bərpa olunub və artır, bu da özünü rəqəmlərdə göstərir. Müəllim peşəsini seçən gənclərimizin sayı hər il artmaqdadır. Qəbul imtahanlarında yüksək bal toplamış bir çox gənclərimiz müəllim olmaq istəyirlər. Çünki müəllimlərin iş şəraiti yaxşılaşıbdır, müəllimlər gözəl məktəblərdə, ali məktəblərdə dərs deyirlər, müəllimlərin əməkhaqları artırılıb və diaqnostik qiymətləndirmədən keçən müəllimlərimiz yüksək maaş alırlar. Əlbəttə ki, bu, gənclərimizin müəllim olmaq istəyini əsaslandırır, eyni zamanda, müəllim peşəsi bütün dövrlərdə Azərbaycanda ən hörmətli peşələrdən biri olmuşdur. Mən çox şadam ki, bu gün biz bu peşənin prestijini bərpa edirik və bu, eyni zamanda, gələcəkdə Azərbaycanda bilikli, savadlı insanların sayının artmasına gətirib çıxaracaq. Çünki müasir dünyada hər bir ölkənin uğurlu inkişafını onun intellektual potensialı müəyyən edəcəkdir, bu, şübhəsizdir. Sadəcə olaraq, inkişaf etmiş ölkələrin təcrübəsinə baxmaq kifayətdir və sual vermək lazımdır, bu ölkələr nəyin hesabına inkişaf etmiş ölkələr sayılır. Məhz biliyin, savadın, texnologiyaların hesabına. Bu gün dünya üçün yeni texnologiyaları təqdim edən, icad edən ölkələr inkişaf etmiş ölkələrdir və bu ölkələrin bir çoxunda təbii resurslar yoxdur. Ona görə hər bir ölkənin inkişafı onun təbii resursları ilə ölçülmür və gələcəkdə bu, özünü daha da qabarıq şəkildə büruzə verəcək. Odur ki, təhsilə qoyulan vəsait hər bir ölkənin gələcəyinə, müstəqilliyinə, təhlükəsizliyinə qoyulan vəsaitdir. Təsadüfi deyil ki, Azərbaycanda büdcə xərcləri arasında təhsil sahəsinə ayrılan xərclər ikinci yerdədir. Əgər biz müharibə şəraitində olmasaydıq, birinci yerdə olardı. Çünki hazırda ən böyük xərclərimiz müdafiə sahəsi ilə bağlıdır. Bu da təbiidir. Yəni, bu, özlüyündə bir göstəricidir, bizim siyasətimizin təzahürüdür, bizim niyyətimizi əks etdirir. Mən şadam ki, bu gün bizim gənclərimiz biliklərə çox meyillidirlər. Gənclərimiz bilikli, savadlı olmalıdırlar ki, gələcəkdə ölkəmizi idarə etsinlər. Bizim gələcəyimiz bu gün məktəblərdə, ali məktəblərdə oxuyan uşaqların, şagirdlərin, tələbələrin əlində olacaqdır. Onların bilikləri, savadı, əlbəttə ki, bizim ölkəmizin gələcəyini şərtləndirəcək. Eyni zamanda, onu da xüsusi qeyd etməliyəm ki, bizim gənclərimiz, uşaqlarımız vətənpərvərlik ruhunda, milli ruhda, milli dəyərlər - ənənəvi Azərbaycan dəyərləri əsasında tərbiyə almalıdırlar. Burada, əlbəttə ki, ailələrin rolu müstəsna əhəmiyyət kəsb edir. Eyni zamanda, bütün məktəblərdə müəllimlər şagirdləri milli ruhda, ənənəvi dəyərlər ruhunda tərbiyə etməlidirlər.

Bu gün biz qloballaşma adı altında böyük siyasətin təzahürlərini görürük - gənclərin beyini bəzi xarici dairələr tərəfindən zəhərlənir, gənclər yoldan çıxarılır, onlar yalan informasiyalarla, böhtan, şər, təxribat xarakterli məlumatlarla üzləşirlər. Gənclər bəzi hallarda yəqin edə bilmirlər ki, hansı informasiya yalandır, hansı informasiya doğrudur. Ona görə müəllimlərdən çox şey asılıdır. Biz uşaqlarımızı, yeniyetmələrimizi, gənclərimizi xalqımıza, milli adət-ənənələrimizə zidd olan, dırnaqarası dəyərlərdən qorumalıyıq. Bizim uşaqlarımız vətənə bağlı olmalıdır, xalqa bağlı olmalıdır, müstəqilliyi hər şeydən üstün tutmalıdır, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır, əsrlər boyu qoruduğumuz milli adət-ənənələrimizi qorumalı və onları müdafiə etməlidirlər. Belə olan halda Azərbaycan bundan sonra da müstəqillik və inkişaf yolu ilə gedəcək.

Biz bu gün müstəqil ölkə kimi böyük uğurlara imza atmışıq. İstənilən sahədə Azərbaycan xalqı görür ki, müstəqilliyin üstünlükləri nədən ibarətdir. Bu gün Azərbaycan ləyaqətli ölkədir, özünü beynəlxalq müstəvidə ləyaqətlə aparır. Azərbaycan azad ölkədir, vətəndaşlarımız azadlıq şəraitində yaşayırlar. Azərbaycan iqtisadi sahədə inkişaf edən ölkədir, güclü orduya sahib olan ölkədir. Biz bütün bunları müstəqillik dövründə əldə etmişik. Bu gün Azərbaycan nadir ölkələrdəndir ki, tam müstəqil siyasət aparır - həm xarici, həm daxili. Bu siyasət Azərbaycan xalqı tərəfindən dəstəklənir. Mən bu dəstəyi hər zaman, hər gün hiss edirəm. Bu dəstək mənə əlavə güc verir. Biz bu dəstəyə arxalanaraq Azərbaycanı inamla irəliyə aparırıq. Bizim uşaqlarımız, gənclərimiz gələcəkdə ölkəmizi bu yolla - müstəqillik yolu ilə aparmalıdırlar ki, Azərbaycan xalqı bundan sonra da heç vaxt heç kimdən asılı olmasın. Biz bundan sonra da heç vaxt heç kimin təsiri altına düşməyək. Dediyim kimi, burada bilik, savad, vətənpərvərlik, milli ruh, ləyaqət xüsusi rol oynayır.

Mən şadam ki, bu gün Azərbaycanda yetişən gənclər məhz bu yüksək meyarlara cavab verir. Əminəm ki, bu müsbət meyillər davam edəcək və bizim uşaqlarımız, gənclərimiz bilik, savad əldə edərək gələcəkdə Vətənə dəyərli vətəndaşlar kimi xidmət edəcəklər və ümumi inkişafımıza öz töhfələrini verəcəklər.

Mən sizi yeni dərs ilinin başlaması münasibətilə bir daha təbrik edirəm, sizə uğurlar arzulayıram.

# V.S.Mayorovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Veniamin Stepanoviç Mayorov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 sentyabr 2020-ci il*

# Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının növbəti iclası keçirilib





Sentyabrın 15-də Azərbaycan Respublikasının Baş Naziri, Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının sədri Əli Əsədovun sədrliyi ilə şuranın növbəti iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda AİH-nin Müşahidə Şurasının və İdarə Heyətinin üzvləri iştirak ediblər.

İclasda Azərbaycan Respublikasının Prezidentinin 2020-ci il 7 avqust tarixli fərmanından irəli gələn tapşırıqlar ətraflı müzakirə olunub.

Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyətinin təşkil olunması istiqamətində görülmüş işlər barədə hesabat dinlənilib.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 avqust tarixli fərmanının 5.2-ci bəndinə əsasən Holdinqin idarəetməsinə veriləcək dövlət müəssisələri ilə bağlı təkliflər müzakirə olunub.

AİH-nin fəaliyyət prinsipləri və dövlət üçün iqtisadi dəyərin yaradılması mövzusunda təqdimat dinlənilib və müzakirələr aparılıb.

# Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının yeni tərkibdə ilk iclası keçirilib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət idarəçiliyində həyata keçirdiyi genişmiqyaslı islahatlara, qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında aparılan dəyişikliklərə uyğun olaraq, 2020-ci ildə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın tərkibi yenilənib.

AZƏRTAC xəbər verir ki, sentyabrın 15-də Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının yeni tərkibdə ilk iclası videoformatda keçirilib. İclasda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev komissiyanın sədri seçilib.

Komissiyanın sədri Samir Nuriyev çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin korrupsiyaya qarşı mübarizə sahəsində müəyyən etdiyi hədəflərə çatmaq üçün komissiyanın üzərinə düşən əsas vəzifələri iclas iştirakçılarının diqqətinə çatdırıb. O qeyd edib ki, Azərbaycanın korrupsiyaya qarşı mübarizə təcrübəsi sistemli, hərtərəfli və innovativ xarakter daşıyır. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın inkişaf strategiyasının mühüm tərkib hissəsini korrupsiyaya qarşı qətiyyətli mübarizə təşkil edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq, bu sahədə yeni strateji baxışlar və vəzifələr müəyyən edilib, korrupsiyaya qarşı mübarizə keyfiyyətcə yeni müstəviyə keçib, uğurlu iqtisadi, hüquqi və sosial siyasət nəticəsində Azərbaycanda şəffaf ictimai münasibətlər sistemi formalaşıb. Dövlət idarəçiliyində səmərəliliyin təmin edilməsi, açıq hökumət prinsiplərinin tətbiqi, elektron xidmətlərin inkişafı dövlət siyasətinin əsas istiqamətlərindəndir. Dövlət orqanlarının fəaliyyətində şəffaflığın daha da artırılması üçün ictimai nəzarət mexanizmlərinin tətbiqi genişləndirilməli, ictimai şuraların fəaliyyətinin səmərəliliyi təmin edilməlidir. Komissiya sədri vurğulayıb ki, korrupsiyaya qarşı mübarizə sahəsində müasir çağırışlara uyğun səmərəli mexanizmlərin tətbiqi üçün yeni təşəbbüslərin irəli sürülməsi zəruridir. Bu sahədə icra edilən tədbirlər korrupsiyaya şərait yaradan halların səbəblərinin müəyyən edilməsinə və bu kimi mənfi halların qarşısının alınması üçün səmərəli mexanizmlərin yaradılmasına yönəldilməlidir.

İclasda korrupsiyaya qarşı mübarizə sahəsində bugünədək görülən işlər nəzərdən keçirilib və növbəti illərdə bu sahədə reallaşdırılması zəruri olan tədbirlərin vahid strateji çərçivəsini müəyyənləşdirmək, prioritetləri önə çəkmək və bu tədbirlərin ölkədə gerçəkləşdirilən islahatlar kursuna cavab verməsini təmin etmək məqsədilə yeni Milli Fəaliyyət Planının əsas istiqamətləri müzakirə olunub, Milli Fəaliyyət Planının layihəsinin hazırlanması barədə tapşırıqlar verilib.

İclasda yerli icra hakimiyyəti orqanlarında korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərlə bağlı aparılan ibtidai istintaq və əməliyyat-axtarış tədbirləri barədə məruzələr dinlənilib, bu sahədə şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması üçün verilən təkliflər müzakirə edilib.

Bundan əlavə, iclasda komissiyanın fəaliyyətinin təşkili ilə bağlı bir sıra məsələlər həll edilib, yeni katib təyin olunub, Komissiya yanında 3 işçi qrupun (Qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı İşçi Qrup, Təhsil və maarifləndirmə ilə bağlı İşçi Qrup, Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə ilə bağlı İşçi Qrup) formalaşdırılması qərara alınıb.

Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq məsələləri müzakirə edilib, bu əməkdaşlığın əhəmiyyəti nəzərə alınmaqla İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı çərçivəsində keçirilən tədbirlərdə, habelə Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunda (GRECO) Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətlərinin tərkibi təsdiq edilib.

İclasda çıxış edən komissiya üzvləri qanunun aliliyinin və dövlət orqanlarının fəaliyyətində şəffaflığın təmin olunması məqsədilə açıqlıq və hesabatlılıq prinsiplərinin tətbiqinin daha da genişləndirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıblar. Vətəndaşlara dövlət xidmətlərinin korrupsiya hallarını istisna edən şəraitdə, operativ və resurslara qənaət etməklə göstərilməsi üçün müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə və innovativ həllərin tətbiqinin genişləndirilməsi zərurəti qeyd edilib. İctimai nəzarətin təmin edilməsi məqsədilə mövcud mexanizmlərin tətbiqinin təkmilləşdirilməsi, vətəndaş cəmiyyəti təsisatları ilə əməkdaşlığın artırılması, korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşan qeyri-hökumət təşkilatlarına dəstək verilməsi və ictimai əhəmiyyətli qərarların qəbulunda onların rolunun artırılması məsələsinə baxılıb. Qanunvericiliyin təkmilləşdirilməsi üçün zəruri olan istiqamətlər qeyd edilib, habelə maarifləndirmə tədbirlərinin davam etdirilməsinin vacibliyi vurğulanıb.

Komissiyanın növbəti dövr üçün iş planı təsdiq edilib.

# Avropa Xəbər Agentliyi Hikmət Hacıyevin Ermənistanın qanunsuz məskunlaşdırma siyasəti barədə açıqlamasını dərc edib

Avropa Xəbər Agentliyinin İtaliya üzrə xüsusi müxbiri, "Eurasiaticanews" portalının rəhbəri Karlo Marino sözügedən agentlikdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində aparılan qeyri-qanuni məskunlaşma siyasəti ilə bağlı AZƏRTAC-a açıqlamasını dərc edib **(https://www.european-news-agency.de/politik/statement_by_hikmat_hajiyev_azeri_foreign_affairs_-79186/)**.




Yazıda Azərbaycanın işğal olunmuş ərazilərinə son günlər Livandan olan ermənilərin köçürülməsindən bəhs edilib. Qeyd olunur ki, Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində apardığı qeyri-qanuni məskunlaşma müharibə cinayətidir.

Bildirilir ki, Azərbaycan da daxil olmaqla dünya ölkələri Livanda baş vermiş faciənin nəticələrinin aradan qaldırılması, Livana humanitar yardım göstərilməsi ilə məşğul olarkən Ermənistan bu faciədən, insanların iztirablarından özünün çirkin məqsədləri naminə sui-istifadə edir. Bununla da Ermənistan onun üçün heç bir mənəvi dəyərlərin olmadığını nümayiş etdirir.

Xüsusilə vurğulanır ki, işğal olunmuş ərazilərimizdə məskunlaşdırılmış əhali faktiki olaraq Ermənistanın məsuliyyətsiz, avantürist siyasətinin qurbanına çevrilir. Hamı bilməlidir ki, Azərbaycanın işğal olunmuş ərazilərində həyata keçirilən qeyri-qanuni məskunlaşdırma siyasətinin heç bir hüquqi qüvvəsi yoxdur və Azərbaycan onun nəticələrini tamamilə rədd edir.

# *Əli ƏHMƏDOV:* "Münaqişənin indiyədək nizama salınmaması, artan erməni təxribatları Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməkdə seçim imkanlarını məhdudlaşdırır"

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yeni fazaya keçdiyi müşahidə edilməkdədir. Erməni təxribatlarının davamlı şəkildə genişləndirilməsi əvvəlki dövrlərdə qorunub saxlanan nisbi sabitliyi getdikcə daha artıq dərəcədə əvəz etməyə başlayıb.

İki ay bundan əvvəl Azərbaycanın Tovuz rayonu istiqamətində erməni hərbi təxribatları nəticəsində baş verən döyüşlər, onun ardınca Ermənistanın silahlandırılması ilə əlaqədar üzə çıxan faktlar, Goranboy istiqamətində erməni diversantının saxlanılması münaqişə zonasında və münaqişə ilə əlaqədar erməni təxribatlarının kiçik siyahısıdır. Ermənistanın baş nazirinin tez-tez işğal zonalarına səfər etməsi, nizamasalma prosesinə daban-dabana zidd olan bəyanatlar səsləndirilməsi növbəti erməni təxribatlarının ayrılmaz tərkib hissəsinə çevrilib. Paşinyan hakimiyyətinin ilk aylarında xanım Paşinyanın "sülh çağırışlarının" son vaxtlar "Kalaşnikov" avtomatı ilə birlikdə çəkdirdiyi fotolarla əvəz olunması erməni təxribatının nə qədər eybəcər xarakter aldığından xəbər verir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Baş Nazirin müavini, YAP-ın Sədr müavini-İcra katibi Əli Əhmədovun son vaxtlar coğrafiyasını daha da genişləndirmiş və azğınlaşmış erməni təxribatları ilə bağlı rəsmi "Facebook" səhifəsində yaydığı "Erməni təxribatları və Minsk qrupunun susqunluğu" sərlövhəli məqaləsində yer alıb.

Erməni təxribatlarının təkcə Ermənistanın militarist səciyyə daşıyan ritorikasının və davranış tərzinin genişlənməsində müşahidə olunmadığını bildirən Əli Əhmədov qeyd edib: "Son vaxtlar Livandan erməni əsilli əhalinin Azərbaycanın işğal altındakı ərazilərinə köçürülməsi faktları münaqişənin nizama salınması prosesinə sarsıdıcı zərbə vuran misli görünməyən təxribatdan savayı bir şey deyil. Bütün dünyanın gözü qarşısında beynəlxalq hüququn kobud surətdə tapdalanması, yəni, işğal olunmuş ərazilərin məskunlaşdırılması prosesi baş verməkdədir. Ermənilər vaxtilə Cənubi Qafqazın demoqrafik vəziyyətini dəyişdirmiş köçürmə siyasətini XXI əsrdə təkrar etmək kimi təhlükəli perspektivlər vəd edən avantüra ilə məşğul olmaq niyyətinə düşüblər. Yaxın Şərqin son 50-60 illik tarixi bu oyunun acı nəticələrini təsəvvür etmək baxımından ibrətamiz nümunədir. Erməni siyasətçilərinin Cənubi Qafqazı fasiləsiz münaqişələr və müharibələr ocağına çevirmək cəhdləri diqqətdən yayınmamalı, bütün beynəlxalq təşkilatların və dünya birliyinin qəzəbinə tuş gəlməlidir.



Gündən-günə genişlənən və azğınlaşan erməni təxribatları fonunda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini nizama salmaq missiyasını öz üzərinə götürmüş ATƏT-in Minsk qrupunun susqunluğu, bitərəf müşahidəçiyə çevrilməsi, yumşaq şəkildə desək, təəccüblü görünməyə bilməz. Onsuz da Minsk qrupu münaqişənin bu qədər uzanmasının, düzgün və ədalətli nizamasalma formulunu tapa bilməməsinin məsuliyyətindən yaxasını kənara çəkə bilməz. İndi isə onun gözləri qarşısında erməni tərəfi yeni, daha acı nəticələrə gətirib çıxara biləcək növbəti cinayəti törətməkdə davam etməkdədir.

Azərbaycan münaqişənin dinc yollarla, lakin ədalətli şəkildə, işğal olunmuş bütün torpaqların azad edilməsi şərti ilə nizama salınmasının tərəfdarıdır. Bəzi istisnalar olmaqla, 1994-cü ildən bugünə qədər davam edən atəşkəs rejimi bunun birbaşa təzahürüdür. Lakin münaqişənin indiyədək nizama salınmaması, getdikcə artmaqda və azğınlaşmaqda olan erməni təxribatları, habelə vasitəçilərin sükunəti Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməkdə seçim imkanlarını məhdudlaşdırır. Azərbaycan işğal olunmuş torpaqlarını qaytarmalıdır və qaytaracaq. Əgər vasitəçilər və diplomatlar bu işdə öz təsirli sözünü deyə bilməsələr, qəhrəman Azərbaycan Ordusu öz şərəfli vəzifəsini yerinə yetirməli olacaq. 2016-cı ilin Aprel və 2020-ci ilin İyul döyüşləri ordumuzun nəyə qadir olduğunu nümayiş etdirib. Hərbçilərimizin həmləsi ilə ədalətin zəfər çalacağı heç kimdə zərrə qədər şübhə doğurmur".

# Heydər Əliyev Fondu tərəfindən Gəncə, Samux və Ucarda inşa edilən və yenidən qurulan təhsil müəssisələri istifadəyə verilib





Son illərdə Azərbaycan təhsili yeni inkişaf dövrünə qədəm qoyub. Prezident İlham Əliyevin qayğısı, Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr Ulu Öndərin təhsil siyasətinin uğurlu davamının göstəricisidir.

Azərbaycan təhsilində ən uğurlu nəticələrdən biri də məktəb tikintisinin geniş vüsət almasıdır. Dövlət başçısının yeni dərs ilinin başlanması və Bilik Günü münasibətilə müraciətində deyildiyi kimi, bu il ölkə üzrə 147 məktəbin tikintisi nəzərdə tutulur. Onların böyük hissəsi Bilik Gününə hazır vəziyyətə gətirilib.

Heydər Əliyev Fondu Azərbaycanın sosial-iqtisadi inkişafının ən mühüm və zəruri sahələrindən biri kimi müəyyən edilmiş təhsil sahəsinin inkişafına daim xüsusi diqqət və qayğı ilə yanaşıb, bu istiqamətdə mühüm əhəmiyyət kəsb edən tədbirlər həyata keçirib. Fond bütün ölkədə böyük rəğbətlə qarşılanan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı, "İnternat məktəblərinin inkişaf proqramı", "Təhsilə dəstək", ümumiyyətlə, dövlət maraqları baxımından müstəsna əhəmiyyətə malik bir sıra layihələri uğurla gerçəkləşdirib.

Fondun təhsillə bağlı qarşıya qoyduğu əsas məqsəd Azərbaycanda bu sahəni inkişaf etdirərək beynəlxalq səviyyəyə çatdırmaqdır. "Yeniləşən Azərbaycana yeni məktəb " layihəsi həyata keçiriləndən sonra hətta respublikamızın ən ucqar regionlarında da hər cür ləvazimatla təchiz olunmuş, müasir tələblərə cavab verən məktəblər tikilib istifadəyə verilib. Müasir tipli məktəblərin inşası, tədris prosesində normal şəraitin yaradılmasının zəruriliyi və digər sahələrdə çoxlu sayda uğurlar qazanılıb.

Təkcə bu tədris ilində Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə ölkəmizdə, o cümlədən Bakı, Gəncə və Mingəçevir şəhərlərində, eləcə də müxtəlif rayonlarda 62 təhsil müəssisəsi inşa və əsaslı təmir olunaraq müəllim və şagirdlərin ixtiyarına verilib. AZƏRTAC bölgələrdə yeni istifadəyə verilən məktəb və məktəbəqədər təhsil müəssisələrindən reportajları təqdim edir.

## Gəncə

15 sentyabr - Bilik Günündə Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Təhsil naziri Emin Əmrullayev, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov əvvəlcə Ulu Öndər Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyublar.

Daha sonra Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə yenidən qurulan İdman liseyinə baxış keçirilib. İdman liseyində foyedə Ümummilli Lider Heydər Əliyevin Azərbaycan idmanının inkişafına göstərdiyi diqqət və qayğını özündə əks etdirən fotoguşə təqdim edilir.

İdman liseyinin dördmərtəbəli yeni binası Heydər Əliyev Fondu tərəfindən inşa olunub. 360 yerlik liseydə 18 sinif otağı var. Yeni istifadəyə verilən təhsil müəssisəsində güləş zalı, futbol, basketbol meydançaları, akt zalı və yeməkxana fəaliyyət göstərir.

Gəncədə idmanın, xüsusən də güləşin böyük ənənələrə malik olduğunu, gəncəli idmançıların isə həm respublika, həm də beynəlxalq səviyyəli yarışlarda böyük uğurlar qazandığını xatırladan Anar



Ələkbərov İdman liseyində yaradılmış ən müasir şəraitdən istifadə edən gənclərin gələcəkdə yeni-yeni uğurlar qazanacağına və ölkəmizin idman şərəfini ləyaqətlə qoruyacağına əminliyini ifadə edib.

## Samux

Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Samux rayonunda da olub. Burada Sərkar kənd Nizami Gəncəvi adına tam orta məktəbin və Sərkar kənd körpələr evi-uşaq bağçasının binaları istifadəyə verilib. Pandemiya şəraitində, karantin rejiminin tələblərinə uyğun olaraq həyata keçirilən açılış mərasimində, həmçinin Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev, məktəbin və bağçanın kollektivi də iştirak ediblər.

Anar Ələkbərov Azərbaycan Prezidenti İlham Əliyevin, birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın salamlarını və yeni tədris ilinin başlanması ilə əlaqədar təbriklərini çatdırıb.

1923-cü ildə tikilən binada fəaliyyətə başlayan məktəb üçün 1936-cı, 1959-cu və 1968-ci illərdə artan tələbata uyğun olaraq əlavə korpuslar tikilib. Məktəb sonuncu dəfə 2004-cü ildə təmir edilib, sinif otaqları çatışmadığı üçün bu vaxtadək tədris iki növbədə aparılıb. Məktəbin binası ötən illər ərzində köhnəlmiş və istifadəyə yararsız vəziyyətə düşmüşdü.

Heydər Əliyev Fondu tərəfindən yeni 800 şagird yerlik məktəbin inşasına 2019-cu ildə başlanılıb, tikinti işləri 2020-ci ilin avqust ayında yekunlaşıb.

Üçmərtəbəli 5 korpusdan ibarət məktəb binasında 39 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, iki informatika, hərbi təlim, tibb otaqları, qızlar və oğlanlar üçün əmək təlimi otaqları, qarderob, kitabxana, yeməkxana, akt zalı, idman zalı və açıq idman meydançası var. Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə təchiz edilib.

Həyətyanı ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Məktəbin direktoru Afaq Möyləyeva müəllim kollektivi, şagirdlər və valideynlər adından Prezident İlham Əliyevə və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təhsilə, onun inkişafına göstərdikləri diqqət və qayğıya görə minnətdarlığını ifadə edib.

Prezidentin köməkçisi Anar Ələkbərov qeyd edib ki, Heydər Əliyev Fondu fəaliyyətində təhsil sahəsini hər zaman diqqətdə saxlayır, bu sahədə müxtəlif layihələr və proqramlar icra etməklə təhsilin inkişafına öz töhfəsini verir. Fond yeni məktəblərin, məktəbəqədər təhsil müəssisələrinin tikilərək istifadəyə verilməsinə də öz dəstəyini əsirgəmir. Fondun təşəbbüsü ilə həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən müasir məktəb binalarının inşasına istiqamətlənib. Proqram çərçivəsində paytaxtda və ölkənin müxtəlif bölgələrində tikilən məktəblər müasir avadanlıq, laboratoriyalar, zəngin kitabxanalar, emalatxana, idman zalları, geniş meydançalar, əyani vəsait və kompüter avadanlığı ilə təchiz edilir.

Sərkar kənd körpələr evi-uşaq bağçası ilə tanışlıq zamanı isə bildirilib ki, bina 1987-ci ildə inşa olunub. 80 yerlik nəzərdə tutulan bağçanın binası qəzalı olduğu üçün 40 yerlik olaraq fəaliyyət göstərib. Bina ötən illər ərzində fiziki köhnəlib və istifadəyə yararsız vəziyyətə düşüb. Heydər Əliyev Fondu tərəfindən yeni körpələr evi-uşaq bağçasının inşasına 2019-cu ilin sonlarında başlanılıb. Tikinti işləri 2020-ci ilin avqust ayında yekunlaşıb.

Yüz yerlik körpələr evi-uşaq bağçasında yataq və oyun otaqları, idman və musiqi zalları, mətbəx, yeməkxana, tibb otağı və digər inzibati və texniki otaqlar mövcuddur. Müəssisə zəruri mebel və avadanlıqlarla tam təchiz edilib. Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb, əyləncə qurğuları quraşdırılıb.

Anar Ələkbərov qeyd edib ki, Heydər Əliyev Fondunun "Uşaq evləri və internat məktəblərinin inkişafı" layihəsi çərçivəsində respublika üzrə onlarla uşaq müəssisəsi əsaslı şəkildə təmir edilib, yeni avadanlıqla təchiz olunub, əlavə yardımçı binalar tikilib və kommunal şərait yaxşılaşdırılıb. Fond həmçinin bu illər ərzində "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı çərçivəsində yeni uşaq bağçaları, körpələr evinin inşası və təmiri sahəsinə öz töhfəsini verib.

Daha sonra Samux rayonunda İmadəddin Nəsimi adına Ziyadlı kənd tam orta məktəbi və körpələr evi-uşaq bağçasının da yeni binaları istifadəyə verilib.

Bildirilib ki, Ziyadlı kənd tam orta məktəbi 1979-cu ildə inşa olunmuş binada fəaliyyət göstərib. Bina sonuncu dəfə 2006-cı ildə təmir edilib. Məktəbin binası sonrakı illərdə köhnəldiyi üçün yararsız vəziyyətə düşüb.

Heydər Əliyev Fondu tərəfindən yeni 523 şagird yerlik məktəbin əsaslı təmirinə 2019-cu ilin sonlarında başlanılıb. Təmir işləri 2020-ci ilin avqust ayında yekunlaşıb. İkimərtəbəli 4 korpusdan ibarət məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar isə əyani vəsaitlərlə tam təchiz edilib.

Məktəbin foyesində Ümummilli Lider Heydər Əliyevin ölkəmizdə təhsilin inkişafına göstərdiyi diqqət və qayğını özündə əks etdirən fotoguşə yaradılıb. Təhsil müəssisəsində 28 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb və əmək təlimi otaqları, kitabxana, yeməkxana və akt zalı, idman zalı və açıq idman meydançası var. Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Ziyadlı kənd körpələr evi-uşaq bağçası ilə tanışlıq zamanı isə bildirilib ki, bina 1929-cu ildə inşa olunub. 60 yerlik nəzərdə tutulan bağça qəzalı olduğu üçün 20 yerlik olaraq fəaliyyət göstərib. Bina ötən illər ərzində köhnələrək yararsız vəziyyətə düşüb. Heydər Əliyev Fondu tərəfindən yeni körpələr evi-uşaq bağçasının inşasına 2019-cu ilin sonlarında başlanılıb. Tikinti işləri 2020-ci ilin avqust ayında yekunlaşıb.

Bina 2 mərtəbədən ibarətdir. Bağçada uşaqlar üçün yataq və oyun otaqları, idman və musiqi zalları, mətbəx, yeməkxana, tibb otağı, digər inzibati və texniki otaqlar mövcuddur. Müəssisə zəruri mebel və avadanlıqlarla tam təchiz edilib.

Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb, dekorativ kol və ağaclar əkilib, uşaq əyləncə qurğuları quraşdırılıb, söhbətgahlar inşa edilib.

## Ucar

Sentyabrın 15-də Ucar rayonunda da bir sıra təhsil müəssisələri istifadəyə verilib. Onlardan biri də Ucar rayonu, Qarabörk kənd tam orta məktəbinin yeni binasıdır.

Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov rayon icra hakimiyyətinin başçısı Mənsur Məmmədovla birgə Ulu Öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

Sonra məktəbin yeni binası ilə tanışlıq olub. Bildirilib ki, məktəbin 1978-ci ildə tikilmiş köhnə binası ötən müddətdə yararsız hala düşmüşdü. Heydər Əliyev Fondu tərəfindən 2019-cu ildə 420 şagird yerlik məktəb binasının yenidən tikintisinə başlanılıb. Yeni tədris ilində istifadəyə verilən məktəb binası 2 mərtəbə və 3 korpusdan ibarətdir.

Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar isə əyani vəsaitlərlə tam təchiz edilib.

420 şagird yerlik ikimərtəbəli məktəb binasında 16 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb və əmək təlimi otaqları, kitabxana, bufet, akt və idman zalları, həmçinin açıq idman meydançası da var.

Həyətyanı sahədə abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Həmin gün Ucar şəhər 6 saylı körpələr evi-uşaq bağçasının binasının da açılışı olub. Bildirilib ki, Ucar şəhər 6 saylı körpələr evi-uşaq bağçası 1954-cü ildən fəaliyyət göstərir. Bina istifadəyə yararsız vəziyyətə düşdüyündən Heydər Əliyev Fondu tərəfindən yeni körpələr evi-uşaq bağçası tikilib. İkimərtəbəli, 80 yerlik körpələr evi-uşaq bağçasında uşaqlar üçün yataq və oyun otaqları, idman və musiqi zalları, mətbəx, yeməkxana, tibb otağı və digər inzibati və texniki otaqlar var.

Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb, uşaq əyləncə qurğuları quraşdırılıb.

Xatırladaq ki, Azərbaycanda hazırda 4500-ə qədər məktəb var. Son 17 ildə bütövlükdə Azərbaycanda 3700-ə qədər məktəb tikilib və əsaslı şəkildə təmir edilib. Bundan başqa, son 2-3 il ərzində kiçik kəndlərdə modul tipli məktəblərin inşasına da start verilib. Bu il modul tipli 60 məktəbin tikintisinə başlanılıb.

Bu il yeni dərs ili yeni şəraitdə, pandemiya dövründə başlayır. Mövcud vəziyyət nəzərə alınaraq, 2020-2021-ci tədris ili yeni formatda təşkil edilir.

# Heydər Əliyev Fondu tərəfindən Tovuz, Qazax, Salyan və Neftçala rayonlarında inşa və təmir edilən təhsil müəssisələrinin açılışı olub





Heydər Əliyev Fondu fəaliyyətində təhsil sahəsini hər zaman diqqətdə saxlayır, bu sahədə müxtəlif layihələr və proqramlar icra etməklə təhsilin inkişafına öz töhfəsini verir.

AZƏRTAC Tovuz, Qazax, Salyan və Neftçalada yeni istifadəyə verilən məktəb və məktəbəqədər təhsil müəssisələrinin açılışından xəbərləri təqdim edir.



## Tovuz

Sentyabrın 15-də Tovuz rayonunda Heydər Əliyev Fondunun dəstəyi ilə tikilən Ş.İ.Xətai adına Köhnəqala kənd orta məktəbin binasının əsaslı təmirdən sonra açılışı olub.

Tədbirdə iştirak edən Təhsil naziri Emin Əmrullayev və Heydər Əliyev Fondunun nümayəndəsi Ceyhun Aslanov əvvəlcə Tovuz şəhərində Ulu Öndər Heydər Əliyevin adını daşıyan parkda Ümummilli Liderin abidəsini ziyarət ediblər.

Sonra məktəb binası ilə tanışlıq olub. Məlumat verilib ki, 1980-ci ildə istifadəyə verilmiş Köhnəqala kənd orta məktəbinin binası köhnəlmiş və qəzalı vəziyyətə düşmüşdü. Məktəbin 624 şagird yerlik yeni binası Heydər Əliyev Fondu tərəfindən inşa olunub. Bina 2 mərtəbəli 4 korpusdan ibarətdir. Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar isə əyani vəsaitlərlə tam təchiz edilib. Məktəb binasında 27 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim və tibb otaqları, qızlar və oğlanlar üçün əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt zalı, idman zalı və açıq idman meydançası da var.

Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Tovuz şəhəri A.Qasımov adına tam orta məktəbin əsaslı təmirdən sonra açılışı zamanı isə diqqətə çatdırılıb ki, məktəb binası 90 il bundan əvvəl tikilmişdi və qəzalı vəziyyətdə idi.

Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı təmir olunmuş 624 şagird yerlik yeni məktəb binası sentyabrın 15-də istifadəyə verilib. Məktəb 3 mərtəbəli tədris korpusundan, idman zalından ibarətdir. Zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə tam təchiz edilib. 21 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim və tibb otaqları, qızlar və oğlanlar üçün əmək təlimi otaqları, kitabxana, yeməkxana və akt zalı, məktəbin ərazisində idman zalı var. Məktəbin həyətyanı ərazisində abadlıq, yaşıllaşdırma işləri aparılıb.

Daha sonra Tovuz rayonu Dondar Quşçu kənd tam orta məktəbinin əsaslı təmirdən sonra istifadəyə verilməsi mərasimi olub.

Məlumat verilib ki, 1984-cü ildə orta məktəbin inşa olunmuş 2 mərtəbəli binası ötən illər ərzində fiziki köhnəlmişdi.

Heydər Əliyev Fondu tərəfindən 620 şagird yerlik məktəbin təmirinə 2019-cu ilin sonlarında başlanılıb. Təmir işləri 2020-ci ilin avqust ayında yekunlaşıb. Məktəbin ümumi ərazisi 1,5 hektar sahəni əhatə edir.

İkimərtəbəli məktəb binasında sinif otaqları, fizika, kimya, biologiya laboratoriyaları, informatika otağı, hərbi təlim, tibb və əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt zalı və idman zalı var. Məktəb otaqları zəruri mebel və avadanlıqlarla tam təchiz edilib.

Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb, asfalt və qazon örtüyü döşənib, dekorativ kol və ağaclar əkilib.

## Qazax

Həmin gün Qazax rayonu İsmayıl Şıxlı adına Kosalar kənd tam orta məktəbi də əsaslı təmirdən sonra istifadəyə verilib.

Əvvəlcə Qazax şəhərində Ulu Öndər Heydər Əliyevin adını daşıyan parkda Ümummilli Liderin abidəsi ziyarət edilib.

Kosalar kənd tam orta məktəbinin yeni binası ilə tanışlıq zamanı bildirilib ki, məktəb 1987-ci ildə tikilib. Fiziki köhnəlmə nəticəsində binada əsaslı təmirə ehtiyac yaranmışdı.

Heydər Əliyev Fondu tərəfindən 2019-cu ilin iyun ayının sonlarında 1176 şagird yerlik məktəbdə əsaslı təmirə başlanılıb. Əsaslı təmir işləri 2020-ci ilin iyun ayının sonlarında yekunlaşıb. Məktəb iki korpusdan ibarətdir. Birinci korpus üçmərtəbəli, ikinci korpus ikimərtəbəlidir. Zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə tam təchiz edilib.

30 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, 2 informatika otağı, hərbi təlim, tibb və əmək təlimi otaqları, elektron kitabxana, akt zalı, idman zalı və 2 açıq idman meydançası, güləş zalı var.

## Salyan

Salyanın Aşağı Kürkənd kəndində yeni məktəb binası istifadəyə verilib. Heydər Əliyev Fondunun dəstəyi ilə inşa edilən təhsil ocağı 360 şagird yerlikdir.

Məktəbin direktoru Sitarə Təhməzova bildirib ki, Azər Əliyev adına Salyan rayon Aşağı Kürkənd kənd tam orta məktəbi 1949-cu ildə tikilib və birmərtəbəli binada fəaliyyət göstərib. Ötən müddətdə məktəbin binası fiziki köhnəlmədən qəzalı vəziyyətdə olub. Son illər binada cari təmir işləri aparılsa da, müasir standartlara cavab vermirdi. İstilik sistemi, işıqlandırma normal olmadığı üçün tədrisə öz mənfi təsirini göstərirdi.

Bu məqsədlə Heydər Əliyev Fondu tərəfindən yeni 360 şagird yerlik məktəbin inşası həyata keçirilib. Üçmərtəbəli bina 3 korpusdan ibarətdir. Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar isə əyani vəsaitlərlə tam təchiz edilib. 360 şagird yerlik binada 20 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb otaqları, qızlar və oğlanlar üçün əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt zalı, idman zalı və açıq idman meydançası var. Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Məktəb binasının açılışında Heydər Əliyev Fondunun nümayəndələri, rayon icra hakimiyyətinin əməkdaşları iştirak ediblər. Yeni istifadəyə verilən bina ilə tanışlıq olub, həmçinin şagirdlərlə görüş keçirilib, onlara dərs ləvazimatlarından ibarət hədiyyələr verilib.

Məktəb direktoru göstərilən diqqət və qayğıya, məktəb üçün inşa edilən yeni binaya görə kollektiv və valideynlər adından Prezident İlham Əliyevə və birinci xanım, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevaya minnətdarlığını bildirib.

Salyanda yenidən inşa edilərək istifadəyə verilən digər təhsil ocağı isə Salyan şəhər 9 saylı körpələr evi-uşaq bağçasıdır.

1975-ci ildə inşa olunan uşaq bağçası uyğunlaşdırılmış binada fəaliyyət göstərib. İstifadəyə yararsız vəziyyətə düşən körpələr evi-uşaq bağçası üçün Heydər Əliyev Fondu tərəfindən yeni bina inşa edilərək istifadəyə verilib.

Bağçanın müdiri Püstə Hacıyeva bildirib ki, əvvəllər tədris keçilən bina birmərtəbəli və 40 yerlik idi. Bina köhnə olduğu üçün bir sıra çətinliklər yaranırdı. Lakin Heydər Əliyev Fondunun dəstəyi ilə qısa müddətdə 60 yerlik ikimərtəbəli bina inşa olunub. Bağçada yataq və oyun otaqları, idman və musiqi zalları, mətbəx, yeməkxana, anbar, tibb otağı, camaşırxana və digər inzibati və texniki otaqlar mövcuddur.

Müəssisə zəruri mebel və avadanlıqlarla tam təchiz edilib. Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb.

Yeni istifadəyə verilən binada yaradılan şəraitə baxış keçirilib.

## Neftçala

Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir edilən Neftçala rayon Rafiq Gözəlov adına Xıllı qəsəbə 1 saylı tam orta məktəb sentyabrın 15-də istifadəyə verilib.

Məktəb direktoru Cəmaləddin Gözəlov bildirib ki, məktəbin binası 1988-ci ildə inşa olunduğundan qəzalı vəziyyətdə idi. Bina istifadə müddətini başa vurduğu üçün istilik sistemi sarıdan da çətinliklər olurdu. Həmçinin otaqların işıqlandırma sistemi zəif olduğu üçün tədrisdə problemlər yaranırdı. Lakin qəzalı vəziyyətə düşən məktəbin binası Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir olunub. Bina 4 korpusdan ibarətdir. Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə tam təchiz edilib.

864 şagird yerlik məktəbdə 38 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, iki informatika otağı, hərbi təlim, tibb və əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt zalı, idman zalı və açıq idman meydançası da var. Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

İstifadəyə verilən binada yaradılan şəraitə baxış keçirilib. Məktəb direktoru təhsil ocağında yaradılan şəraitə görə pedaqoji kollektiv və qəsəbə sakinləri adından Prezident İlham Əliyevə və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya təşəkkürünü ifadə edib.

Xıllı qəsəbə sakini Rauf Əliyev də qəsəbədə məktəb binasının əsaslı təmir olunmasını ölkəmizdə təhsil infrastrukturunun gücləndirilməsi istiqamətində atılan addımların bariz nümunəsi olduğunu vurğulayıb. O, köhnə binanın tədrisə də mənfi təsir göstərdiyini bildirib. "Amma artıq qəsəbəmizin şagirdləri əsaslı təmir olunan məktəb binasında təhsil alacaqlar. Bu, tədrisə də öz müsbət töhfəsini verəcək. Yaradılan şəraitə görə bu işdə əziyyəti keçənlərə minnətdarlığımızı bildiririk", - deyə o qeyd edib.

# Müasir təhsil standartlarına cavab verən yeni məktəb binası

2020-2021-ci tədris ilində Gəncə şəhərində Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən Azərbaycan Bayrağı küçəsində salınan yaşayış kompleksində inşa edilmiş 28 saylı tam orta məktəbin binasının açılışı olub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, pandemiya şəraitində karantin rejiminin tələblərinə uyğun olaraq həyata keçirilən açılış mərasimində Təhsil naziri Emin Əmrullayev, Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov iştirak ediblər.

Mərasim iştirakçıları əvvəlcə binanın girişində Ümummilli Lider Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafına göstərdiyi diqqət və qayğını özündə əks etdirən fotoguşə ilə tanış olublar.

Məktəbin direktoru Esmira Qaraxanova bildirib ki, 28 saylı tam orta məktəbin ümumi ərazisi 6,23 hektardır. 1170 şagird üçün nəzərdə tutulan məktəbdə hazırda 840 nəfər şagird təhsil alır. Məktəb binası 4 mərtəbədən, 5 korpusdan, 56 sinif otağından (1 ədəd məktəbəqədər, 15 ədəd ibtidai, 29 adi sinif otağı) ibarətdir.

Qeyd edilib ki, məktəbdə kitabxana, fizika, kimya, biologiya laboratoriyaları, informatika, əmək və hərbi kabinetlər yaradılıb. Məktəb üçün həmçinin 136 yerlik yeməkxana, 387 yerlik akt zalı, 540 kvadratmetrlik idman zalı ən müasir tələblər səviyyəsində qurulub.

Müasir təhsil standartlarının yaradıldığı yeni məktəb binasının və buradakı mövcud maddi-texniki bazanın gələcəkdə şagirdlərin bilik və bacarıqlarının inkişafına müsbət təsir göstərəcəyini deyən Esmira Qaraxanova məktəbin pedaqoji kollektivi, şagirdlər və valideynlər adından Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlığını ifadə edib.

Təhsil naziri Emin Əmrullayev 15 sentyabr - Bilik Günü və 28 saylı tam orta məktəb üçün tikilmiş yeni binanın açılışı münasibətilə müəllim və şagirdləri təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

# Azərbaycan ilə Fransa arasında əməkdaşlıq məsələləri müzakirə olunub

Sentyabrın 15-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Fransanın ölkəmizdəki səfiri Zakari Qros ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov ikitərəfli münasibətlərin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayaraq ölkələrimiz arasında Azərbaycanın müstəqilliyinin bərpasının ilk illərindən başlayaraq əməkdaşlığın yüksək səviyyədə inkişaf etdiyini diqqətə çatdırıb. Yüksəksəviyyəli səfərlər də daxil olmaqla, iki ölkə arasında müxtəlif sahələr üzrə mövcud mübadilə və təmasların qarşılıqlı faydalı əlaqələrimizin daha da genişlənməsinə böyük töhfə verdiyi qeyd olunub.

Səfir Zakari Qros Fransanın Avropa və Xarici İşlər naziri Jan İv Lö Drianın səmimi təbriklərini nazir Ceyhun Bayramovun diqqətinə çatdırıb. O, Fransanın Avropa və Xarici İşlər nazirinin azərbaycanlı həmkarını Parisə rəsmi səfərə dəvət etdiyini bildirib.

Tərəflər iki ölkə arasında siyasi, iqtisadi, enerji, ticarət, humanitar və digər sahələrdə mövcud olan əməkdaşlıq münasibətləri ətrafında fikir mübadiləsi aparıblar. Söhbət zamanı Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin davam etdirilməsi, iqtisadi sahədə mövcud potensialdan tam istifadə olunması, o cümlədən Hökumətlərarası İqtisadi Komissiyanın fəaliyyətinin əhəmiyyəti, eləcə də təhsil sahəsindəki uğurlu əməkdaşlığın Fransa-Azərbaycan Universiteti (UFAZ) timsalında uğurlu nümunəsi qeyd olunaraq, bu xüsusda əlaqələrin gələcəkdə daha da genişləndirilməsi məsələlərinə diqqət yetirilib.

Nazir Ceyhun Bayramov ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi qismində Fransa səfirinə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı yaranmış vəziyyət barədə ətraflı məlumat verib. Münaqişənin həlli üzrə danışıqlar prosesinin Ermənistan tərəfinin nümayiş etdirdiyi son dərəcə təxribatçı və məsuliyyətsiz davranış səbəbindən dalana dirəndiyi qeyd olunub. Ermənistan rəhbərliyinin bölgədə gərginliyin alovlanmasına xidmət edən təhrikçi əməlləri və bu kimi təxribatçı fəaliyyətə Minsk qrupu həmsədrləri tərəfindən münasibət bildirilməməsi təəssüflə vurğulanıb. İşğalçı Ermənistan ilə əraziləri 30 ilə yaxındır işğal altında saxlanılan Azərbaycana tarazlı mövqe nümayiş etdirilməsinin düzgün olmadığı bildirilib. Həmçinin son zamanlar Ermənistanın geniş şəkildə silahlanması bu ölkənin yeni təxribatlarda maraqlı olmasının göstəricisi kimi vurğulanıb.

Səfir Zakari Qros Fransanın bölgədə sülhün və təhlükəsizliyin təmin edilməsində maraqlı olduğunu vurğulayaraq, münaqişənin həlli üzrə danışıqlarda irəliləyişin əldə olunmamasından ölkəsinin də narazı qaldığını qeyd edib.

Görüşdə habelə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Qanunsuz məskunlaşdırma yalnız qanun pozuntusu deyil, bu, bir cinayətdir

Əfsuslar olsun ki, bəşəri faciənin kobud siyasi məqsədlər və təxribatlar üçün istifadə edildiyinin bir daha şahidi olduq. Livandakı çoxsaylı hərbi əməliyyatlara və iztirablara səbəb olan faciəvi partlayış Ermənistan tərəfindən bölgəmizdəki vəziyyəti gərginləşdirmək üçün istifadə edilib.



Bu fikirləri AZƏRTAC-a Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycanın AŞ PA-da nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirib.

Səməd Seyidov deyib ki, Azərbaycan da daxil olmaqla dünya ölkələri Livanda baş vermiş faciənin nəticələrinin aradan qaldırılması, Livana humanitar yardım göstərilməsi ilə məşğul olarkən, Ermənistan bu faciədən zərərçəkmiş insanların iztirablarından öz çirkin məqsədləri naminə növbəti dəfə sui-istifadə etməkdədir. Həmin insanlara Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz məskunlaşma təklif edən Ermənistan Livandan olan insanları silahlı muzdlular kimi də istifadə etmək niyyətindədir. Bu cür çirkin əməllər törətməyə davam edərək, işğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyət, o cümlədən qeyri-qanuni məskunlaşdırma siyasəti apararaq ermənilər Azərbaycan torpaqlarından Azərbaycanın izini yox etməyə çalışır.

Məlumdur ki, müharibə dövründə mülki əhalinin qorunmasına dair 1949-cu il Cenevrə Konvensiyasına və beynəlxalq hüquqa əsasən işğalçı dövlətin öz mülki əhalisini işğal etdiyi əraziyə köçürməsi müharibə cinayəti hesab edilməlidir. Bu baxımdan, Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində apardığı qeyri-qanuni məskunlaşdırma müharibə cinayəti kimi qiymətləndirilə bilər. İstehzalı olsa da, Ermənistanın hətta öz Cinayət Məcəlləsinin qanunvericiliyinə görə də bu cür əməllər cinayət hesab olunur.

Buna baxmayaraq, heç bir hüquqa və qanuna məhəl qoymayan Ermənistanın davamlı olaraq atdığı təxribat addımları Ermənistanın münaqişənin həllində maraqlı olmadığını və Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü hədəf alan təcavüzkar siyasət nümayiş etdirdiyini növbəti dəfə təsdiqləyir. Bu cür qanunsuz fəaliyyətlər beynəlxalq hüququ, Cenevrə Konvensiyalarını pozmaqdan əlavə insanların münaqişə zonasına köçürülməklə həyatlarını təhlükəyə ataraq, həm də humanitar və mənəvi prinsipləri də pozur.

Bu baxımdan, Azərbaycanın haqq səsinin beynəlxalq ictimaiyyətə çatdırılması indi xüsusilə zəruridir və bu istiqamətdə artıq davamlı tədbirlər görülməkdədir. Hazırda Azərbaycan Ermənistanın son cinayətlərini örtbasdır etmək cəhdlərini fəal şəkildə ifşa edir və onların son zamanlardakı əməllərinin dünya səviyyəsində qınaq obyektinə çevrilməsi üçün əlindən gələni etməyə çalışır. Qeyri-qanuni məskunlaşdırma siyasətinin qarşısının alınması məqsədilə bütün araşdırılmış faktlar Avropa Parlamenti, AŞ PA, ATƏT kimi beynəlxalq qurumlara, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrlərinə qədər çatdırılıb və çatdırılmaqda davam edir.

"Azərbaycan artıq beynəlxalq qurumlardan daha ciddi və məqsədyönlü mövqe gözləyir. Xüsusilə, son həftə ərzində biz bu məsələlərlə bağlı AŞ PA-nın Siyasi və monitorinq komitələrinin iclaslarında öz etirazlarımızı səsləndirmişik və ermənilərin bütün cinayətkar əməllərini və yalanlarını dürüst məlumat şəklində bildirmişik. Bu nöqteyi-nəzərdən, məqsədimiz beynəlxalq təşkilatlar tərəfindən Ermənistana qarşı konkret sənədlər və müxtəlif sanksiyaların tətbiq edilməsidir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın ərazi bütövlüyünə heç vaxt qəsd edilə bilməz və bu cür cəhdlərin qarşısı qətiyyətlə alınacaqdır", - deyə Səməd Seyidov bildirib.

# Ermənistanın işğal etdiyi ərazilərdə həyata keçirdiyi ekoloji terror regionun ətraf mühitinə ciddi təhlükə yaradır - birgə bəyanat

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi birgə bəyanat yayıblar. AZƏRTAC bəyanatı təqdim edir.

Təcavüzkar Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində və transsərhəd səviyyədə su ehtiyatlarının mühafizəsi və idarəçiliyi ilə bağlı beynəlxalq hüququn bütün prinsiplərini pozmaqda davam edir. Ermənistan tərəfindən işğal altında saxlanılan Dağlıq Qarabağ bölgəsi və ətraf rayonlarımızda təbiətə qarşı düşmən münasibət və ekoloji terror regionun ətraf mühitinə ciddi təhlükə yaradır. Ermənistan tərəfindən transsərhəd çayların ağır formada çirkləndirilməsi nəticəsində sözügedən çaylarda canlı aləmin yaşayışı üçün böyük təhlükə yaranıb. Bununla yanaşı, işğal olunmuş ərazilərdə su anbarlarından istifadə qeyri-mümkün olub və texniki xidmət göstərilmədiyindən ətraf ərazilərdə yaşayan əhali üçün potensial təhlükə mənbəyinə çevrilib.

Ermənistanın BMT-nin "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi üzrə" Konvensiyaya qoşulmaması sərhədlərarası su problemlərinin beynəlxalq normalar çərçivəsində həllini mümkünsüz edir. Ermənistan silahlı qüvvələrinin sözügedən regiondan dərhal çıxarılması, müstəqil mühəndis və hidroloqlar tərəfindən yerində təhqiqat aparılmasının təmin edilməsi tələbini özündə əks etdirən Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul edilmiş Azərbaycanın sərhədyanı rayonlarının sakinlərinin qəsdən sudan məhrum edilməsi ilə bağlı 2016-cı ildə qəbul edilən 2085 saylı qətnamə icra edilməyib. Əksinə, Ermənistan bu istiqamətdə fəaliyyəti daha da genişləndirib. Son günlər Ermənistanın Tavuş rayonunun Dovex kəndindən keçərək Qazax rayonunun Kəmərli kəndindəki su anbarına tökülən İncəsu çayının qarşısının alınması yerli əhalini sudan məhrum edib.

Beynəlxalq hüquq prinsiplərinin və insan hüquqlarının ciddi pozulması halı olan bu vəziyyət, eyni zamanda, beynəlxalq səviyyədə qəbul edilmiş sənədlər, o cümlədən BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri və İqlim dəyişmələri üzrə Paris Sazişindən irəli gələn öhdəliklərin yerinə yetirilməsində ciddi çətinliklər yaradır.

Ermənistan rəhbərliyinin son zamanlar nümayiş etdirdiyi açıq təxribatçı fəaliyyətə ekoloji terror əməllərinin də əlavə olunması bu təcavüzkar ölkənin beynəlxalq hüquq və fundamental insan haqlarını kobud şəkildə pozmaqla yanaşı, bölgədə sülh və təhlükəsizliyə ciddi təhdid olaraq qalmaqda davam etdiyini göstərir.

Beynəlxalq ictimaiyyəti Ermənistanın qanunsuz fəaliyyətini sərt şəkildə qınamağa və işğalçı ölkənin bu kimi qeyri-qanuni əməllərinin qarşısının alınması üçün təxirəsalınmaz tədbirlər görməyə çağırırıq.

# Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclası keçirilib

Sentyabrın 15-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin 2020-ci ilin payız sessiyasında ilk iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komitə sədri Sadiq Qurbanov əvvəlcə yeni sessiyanın başlanması münasibətilə həmkarlarını təbrik edib, onlara payız sessiyasındakı fəaliyyətlərində uğurlar arzulayıb. Sonra 2020-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində komitədə görülən işlərə dair hesabat təqdim olunub.

Bildirilib ki, hesabat dövründə komitənin 5 iclası keçirilib. İclaslarda "İstehsalat və məişət tullantıları haqqında", "Heyvanlar aləmi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Bələdiyyələrin su təsərrüfatı haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Ovçuluq haqqında", "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi rejimin tətbiqi haqqında", "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Yerin təki haqqında", "Baytarlıq haqqında" və "Yeyinti məhsulları haqqında" qanunlarda, həmçinin Torpaq Məcəlləsində, Mülki və İnzibati Xətalar məcəllələrində dəyişikliklər edilməsi barədə qanun layihələri müzakirədən keçirilərək Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Bildirilib ki, ötən dövrdə komitədə ölkəmiz üçün çox vacib məsələyə - su ehtiyatlarının idarə olunmasına, bu sahədə mövcud problemlərin həllinə həsr edilmiş geniştərkibli parlament dinləmələri keçirilib. "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyinin və digər aidiyyəti qurumların nümayəndələrinin iştirak etdikləri tədbirdə su sektorundakı mövcud problemlər, bu sahədə qanunvericiliyinin təkmilləşdirilməsi barədə məsələlərə ətraflı nəzər salınıb, "Su Məcəlləsi"nin yenidən işlənməsinin vacibliyi vurğulanıb.

Sadiq Qurbanov qeyd edib ki, yaz və növbədənkənar sessiyalar dövründə komitə üzvləri seçicilərlə çoxsaylı görüşlər keçirib, onların qayğı və problemləri ilə maraqlanıblar.

Komitə üzvləri hesabatı məqbul hesab ediblər.

Sonra komitənin 2020-ci ilin payız sessiyası üçün qanunvericilik işləri planı müzakirə olunub. Bildirilib ki, qarşıdakı sessiyada iş planına Azərbaycan Prezidentinin, Milli Məclisin deputatlarının, Respublika Ali Məhkəməsinin, Baş Prokurorun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun layihələri, bir sıra qanunlara əlavə və dəyişikliklərin olunması barədə sənədlərin müzakirəsi daxil edilib. Komitəyə müvafiq orqanlardan və vətəndaşlardan daxil olan təkliflərin təhlili və ümumiləşdirilərək hazırlanması, komitənin əhatə etdiyi sahələrlə bağlı yerlərdə maarifləndirici tədbirlərin təşkili də görüləcək işlərin sırasına daxildir. Qanunvericilik işləri planı təsdiq edilib.

Komitənin iclasında həmçinin cari məsələlər barədə geniş fikir mübadiləsi aparılıb. Deputatlardan Asim Mollazadə, Afət Həsənova, İltimas Yusifov, Fatma Yıldırım, Nəsib Məhəməliyev, Məşhur Məmmədov, Naqif Həmzəyev, komitənin eksperti Şamil Hüseynov neft istehsalı və emalı zamanı yaranan qrunt sularına texnoloji proseslərə uyğun şəkildə nəzarət olunması, bölgələrdə ekoloji tarazlığın pozulmasına gətirib çıxaran məişət tullantılarının təkrar emalı prosesində sahibkarların və vətəndaşların məsuliyyətinin artırılması, məktəblilər arasında ətraf mühitə münasibətin daha da yaxşılaşdırılması üçün Təhsil Nazirliyi ilə birlikdə orta məktəblər üçün "Yaşıl bilik" adlı proqramın işlənib hazırlanması, su və təbii qaz təchizatı ilə bağlı mövcud problemlərlə bağlı fikirlərini bildirib, təkliflər səsləndiriblər.

# Ermənistanın xarici işlər nazirinin müsəlman ölkələri ilə sıx əməkdaşlıqdan bəhs etməsi cəfəngiyyatdan başqa bir şey deyil

Ermənistan Xarici İşlər naziri Z.Mnatsakanyanın Misir Ərəb Respublikasına səfəri çərçivəsində səsləndirdiyi fikirlər, yüz minlərlə müsəlman azərbaycanlını qanlı etnik təmizləməyə məruz qoyaraq evlərindən didərgin salan, Xocalıda bir gecədə 613 mülki şəxsi yalnız azərbaycanlı və müsəlman olduqları üçün qəddarlıqla qətlə yetirən, Azərbaycanın işğal olunmuş ərazilərində müsəlman irsini məhv edərək məscidləri talan edən bir ölkənin rəsmisinin riyakarlığının bariz nümunəsidir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin açıqlamasında yer alıb.

Açıqlamada, həmçinin deyilir: "Dövlət siyasətinin ideoloji əsasını terrorçuluq təşkil edən Ermənistan 1980-ci illərin sonu 1990-cı illərin əvvəllərində Azərbaycana qarşı terror əməliyyatlarından geniş istifadə edib. Azərbaycan ərazisində sərnişin avtobuslarının, qatarların və Bakıda metro stansiyasının partlayışı ilə müşayiət olunan 30-dan çox terror aktı nəticəsində 2000-dən çox mülki şəxs həlak olub.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonunun ilhaqında terror vasitələrindən geniş istifadə edən Ermənistanın hərbi əməliyyatlara xarici ölkələrdən, xüsusilə Yaxın Şərq bölgəsindən terrorçu muzdluları cəlb etməsi məlum bir faktdır. Sonradan bu terrorçuları dövlət səviyyəsində qəhrəmanlaşdıran Ermənistanın əsl siması elə ASALA terror təşkilatının rəhbərlərindən olan və Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin işğalında birbaşa iştirak edən qatı terrorçu Monte Melkonyan kimilərinin nümunəsində özünü göstərir.

1970-1980-ci illərdə ASALA və digər erməni terror təşkilatları dünyanın 22 ölkəsində 235-dən çox terror aktı törədib. Qardaş Türkiyənin 24 diplomatı erməni terrorçuluğunun qurbanı olub.

Bütün bu sadalananlar fonunda təcavüzkar Ermənistanın Xarici İşlər nazirinin müsəlman ölkələri ilə dostluq və sıx əməkdaşlıqdan bəhs etməsi, regional və qlobal təhlükəsizlikdən danışması cəfəngiyyatdan başqa bir şey deyil.

Təcavüzkar Ermənistanın saxta və cəfəng iddialarını və bəyanatlarını qətiyyətlə rədd edir, bu ölkənin BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli qətnamələrinə, eləcə də İslam Əməkdaşlıq Təşkilatının Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair qəbul etdiyi çoxsaylı qətnamələrə əməl etməsini tələb edirik".

# Milli Məclisin Gənclər və idman komitəsi ilə Təhsil Nazirliyi "Vətənpərvər məktəblilər" layihəsinə başlayıb

Vətənpərvərlik hamımız üçün ən ülvi hissdir, doğma yurda olan sonsuz sevgimizdir, el-obaya bağlılığımızdır. Ulu Öndər Heydər Əliyevin "Milli vətənpərvərlik prinsipi gərək körpəlikdən başlayaraq hər bir vətəndaşın həyat prinsipi, həyat qanunu, nizamnaməsi olsun" şüarı əsas götürülərək vətənpərvərlik layihəsi məktəbdən başlamalıdır. Ümummilli Lider Heydər Əliyevin böyük müdrikliklə söylədiyi fikirlər rəhbər tutularaq məcburi köçkün məktəblərində "Vətənpərvər məktəblilər" layihəsinin həyata keçirilməsi ilə bağlı təşəbbüs irəli sürülüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, parlamentin Gənclər və idman komitəsinin Təhsil Nazirliyi ilə birgə həyata keçirdiyi "Vətənpərvər məktəblilər" pilot layihəsinə ilk olaraq Bakı şəhəri, Suraxanı rayonu, Bülbülə qəsəbəsində müvəqqəti yerləşən və məcburi köçkün məktəbi olan Cəbrayıl rayonu, Hovuslu kənd tam orta məktəbindən başlanılıb.

Layihə çərçivəsində Milli Məclisin Gənclər və idman komitəsi "Elmi araşdırmalar" İctimai Birliyi" ilə birlikdə Cəbrayıl rayonu, Hovuslu kənd tam orta məktəbində təhsil alan 210-dan çox məktəbliyə üzərində Azərbaycan Respublikasının dövlət bayrağı həkk olunmuş, işğal edilmiş rayonumuzun adı yazılmış yay və qış geyim forması, vətənpərvərlik rəmzləri təqdim edilib.

Cəbrayıl rayonu, Hovuslu kənd tam orta məktəbində təhsil alan şagirdlərə müəyyən olunmuş dərs vaxtlarına riayət etməklə vətənpərvərliklə bağlı zəruri biliklərin, o cümlədən hər bir azərbaycanlının yüksək vətənpərvərlik duyğuları ilə yaşamaq, vətənin hər birimizin müqəddəs səcdəgahı, pənah yeri olaraq ona ilahi bir sevgi ilə bağlanmaq kimi fikirlərin aşılanması nəzərdə tutulub.

Təsadüfi deyil ki, Hovuslu kənd tam orta məktəbinin 210-dan çox şagirdi, valideynlər və müəllimlər belə mühüm layihənin həyata keçirilməsini razılıqla qarşılayıblar.

Layihə çərçivəsində təhsilalanlarla tez-tez görüşlərin keçirilməsi, onların vətənpərvər ruhda tərbiyə olunması ilə yanaşı, informasiya resurslarından səmərəli istifadə edilməsinin, ölkəmizin ziyalıları ilə mütəmadi görüşlərin təşkilinin, şagirdlərin oxumağa və xarici dil biliklərinin artırılmasına təşviqi nəzərdə tutulur.

Bütün təhsilalanları, müəllimləri və valideynləri 15 sentyabr - Bilik Günü münasibətilə səmimi-qəlbdən təbrik edən Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev bildirib ki, mövcud pandemiya şəraitinin təhsil sistemində də çətinliklər yaratmasına baxmayaraq, ölkəmiz distant təhsilə qısa müddət ərzində inteqrasiya edib. Ümumiyyətlə, ölkəmizdə təhsil sahəsində aparılan sistemli islahatların ana xəttini insan kapitalının formalaşdırılması təşkil edir.

Ölkə gənclərinin Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideyalarına sadiq olması, gənc nəslin təhsilli və vətənpərvər ruhda yetişdirilməsi, milli-mənəvi dəyərlərə uyğun tərbiyə edilməsi günün tələbidir. Layihənin həyata keçirilməsi üçün məcburi köçkün məktəblərinin seçilməsində əsas məqsədlərdən biri işğal altındakı ərazilərimiz, torpaqlarımızın müdafiəsi zamanı şəhid olan qəhrəmanlarımız barədə gənc nəslə daha geniş məlumatların verilməsidir.

# Ermənistanın şansı azalır

*Əvvəli 1-ci səh.*

Hər bir halda danışıqların sürətlənməsinə və konkretləşdirilməsinə kömək edə biləcək təklifləri nəzərdən keçirmək lazımdır. Ancaq ATƏT-in Minsk qrupunun qarşıdakı səfərlərində buna yaxın belə şeylərin olmadığı məlum olarsa, Azərbaycan artıq bu strukturla belə uzunmüddətli rejimdə danışıqları davam etdirməyə dəyib-dəymədiyinə qərar verməlidir. Bəlkə də yalnız Qarabağ məsələsinə baxılmasını sürətləndirmək üçün yox, həm də ATƏT-in Minsk qrupunun bu cür fəaliyyətsizliyi nəticəsində bütün bölgənin partlamaması üçün bəzi başqa variantları təklif etməsi məqsədilə birbaşa BMT-yə müraciət etmək lazımdır".

Azərbaycan Minsk qrupunun fəaliyyətindən narazıdır və qurumun indiyə qədər olan fəaliyyəti sadəcə, status-kvonun qorunub saxlanılmasına xidmət edib. Təbii ki, bundan razı qalan yalnız Ermənistandır. Təsadüfi deyil ki, bu ölkənin xarici işlər naziri Zöhrab Mnatsakanyanın mətbuata müsahibəsində xüsusi razılıq edir. O, Minsk qrupunun fəaliyyətini tərifləyir və danışıqların məhz bu formatda davamını vacib sayır. Bu da təsadüfi deyil. Çünki bu formatın saxlanılması münaqişənin həllinin uzanmasına və Qarabağda erməni işğalının davam etməsinə gətirib çıxarır. Elə bu səbəbdən Minsk qrupunun fəaliyyəti uzun müddətdir ki, Azərbaycan ictimaiyyəti tərəfindən çox sərt tənqidə məruz qalır.

Rəsmi Bakı aparılan danışıqların heç bir mənasının olmadığını, Minsk qrupunun öz mandatına, BMT-nin Təhlükəsizlik Şurasının qərarlarına uyğun olaraq, işğal olunmuş ərazilərin azad olunması ilə bağlı heç bir ciddi səylər göstərmədiyini vurğulayır. Bu halda Bakı Minsk qrupunun formatında dəyişiklik olmasını, qrupa üzv digər ölkələrin də prosesdə aktiv iştirakını istəyir.

Hazırda Azərbaycan ən yüksək səviyyədə bəyan edir ki, Ermənistanla mənasız danışıqlar aparmaq niyyətində deyil. Danışıqların davamını istəyən Minsk qrupunun isə nəticə üçün Ermənistana təsir etməsi vacibdir. Belə təsirin olmasını şərtləndirən məqamlardan biri Türkiyənin vasitəçi qismində prosesə cəlbidir.

Türkiyə Minsk qrupunun üzvlərindən biridir və prosesə vasitəçi kimi qatılması vəziyyəti tamam dəyişə, danışıqlarda nəticənin əldə edilməsinə gətirib çıxara bilər.

Ekspertlər hesab edir ki, Minsk qrupunun üzvü olan Türkiyənin bu məsələdə daha fəal olması qurumun indiki həmsədrlərini narahat etməli deyil. Çünki Minsk qrupu özü də anlayır ki, onun səyləri heç bir nəticə vermir və artıq format dəyişikliyinə ehtiyac var. Yeri gəlmişkən qeyd edək ki, Türkiyənin Minsk qrupunda aktiv vasitəçi olaraq iştirak etməsi indidən Ermənistanda top-tüfənglə qarşılanır. Z.Mnatsakanyan "İnterfaks" agentliyinə müsahibəsində Türkiyənin vasitəçiliyinə qarşı çıxıb və Ankaranı regionda destabil vəziyyət yaratmaqda ittiham edib. Halbuki, Türkiyə hər zaman Cənubi Qafqazda sabitliyin və sülh şəraitinin təmin olunması üçün fəaliyyət göstərib.

Ermənistan prezidentinin müşaviri Tevan Poqosyan qeyd edir ki, Bakı Ankaranın yardımı ilə Qarabağ münaqişəsini ya sülh, ya da hərb yolu ilə çözəcək. Bu səbəbdən o, Yerevanın Türkiyə amilinə daha çox diqqət yetirməsini vacib sayır: "Regionda Azərbaycan-Türkiyə faktoru güclənir. Azərbaycan Türkiyə ilə indi çox aktiv şəkildə hansısa əməliyyatlara hazırlaşır. Ermənistan üzləşdiyi bütün təhlüksəzilik problemlərini yaxşı başa düşməli və bunlara qarşı çıxmağa hazır olmalıdır. Amma bu gün Ermənistanın belə imkanları getdikcə məhdudlaşır".

Qarabağdakı qondarma qurumun sabiq "nümayəndəsi" Tiqran Abrahamyan isə bildirir ki, Bakı və Ankara erməni diasporunun sıradan çıxarılması və birgə təbliğat sahəsində də önəmli addımlar atır: "Məsələn, Türkiyə və Azərbaycan ortaq media platforması yaradır, rəsmi açıqlamalara görə, bunun məqsədi təhlükəsizlik sahəsinin təhdidləridir". O qeyd edib ki, Türkiyə-Azərbaycan ortaq media platforması Ermənistan və diaspor üçün böyük cəbhə açır.

Xatırladaq ki, Prezidentin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin rəhbərlik etdiyi nümayəndə heyətinin İstanbul səfərində diqqət mərkəzində yer alan məqamlardan biri məhz ortaq media platforması yaradılması olub. Hikmət Hacıyevin vurğuladığı kimi, televiziyadan kino sektorunadək bütün sahələr üzrə birgə layihələrin həyata keçirilməsi, mütəxəssis mübadilə proqramlarının hazırlanması, eləcə də texnologiya sahəsində əməkdaşlıq hər iki ölkəyə qarşı həyata keçirilən qarayaxma kampaniyası ilə mübarizədə əhəmiyyətli rol oynayacaq.

Ancaq bu da məsələnin hamısı deyil. Belə ki, Türkiyə-Azərbaycan media platforması düşünüldüyü kimi reallaşdırıldığı təqdirdə, özünə yeni tərəfdaşlar da cəlb edəcək. Məsələn, növbəti mərhələdə bu platformaya Türk Şurasına üzv olan digər qardaş ölkələrin də mediası qoşula bilər. Bu isə təbii ki, yalançı erməni təbliğatına qarşı daha böyük cəbhə formalaşması deməkdir. Azərbaycan-Türkiyə əməkdaşlığı fonunda Ermənistanı narahat edən əsas məqamlardan biri də budur.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***



# Azərbaycan-Türkiyə münasibətlərinin dünyada analoqu yoxdur

## Hər iki ölkə regionda sabitliyin təminatçısına çevrilib

*Əvvəli 1-ci səh.*

Bu günlərdə Bakının işğaldan azad edilməsinin 102-ci ildönümü qeyd edilir. 1918-ci il sentyabrın 15-də Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad etdi. Azərbaycanla Türkiyə arasındakı münasibətlərə xüsusi möhtəşəmlik qatan mühüm məqamlardan biri də bu hadisə ilə bağlı hər iki dövlət başçısının bir-birilərinə ünvanladıqları təbrik məktublarıdır.

Azərbaycan Prezidenti İlham Əliyevin türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğana məktubunda yazılır ki, bu gün biz Bakının işğaldan azad edilməsinin 102-ci ildönümünü qeyd edirik. Həmin dövrün çətinliklərinə baxmayaraq, qardaş Türkiyə Azərbaycandan öz yardımını əsirgəmədi. Azərbaycan xalqı üçün 15 sentyabr olduqca əlamətdar bir gündür. Məhz həmin gün Bakı işğaldan azad edilərək ilk dəfə müstəqil Azərbaycan dövlətinin paytaxtı elan olundu. Bu tarixi qələbədən sonra Qafqaz İslam Ordusunun və Azərbaycan Milli Ordusunun zəfər yürüşü Bakı sakinləri tərəfindən böyük coşqu və sevinclə qarşılandı.

Ümumiyyətlə, dünya siyasi düzəninin indiki şəraitində hər iki ölkənin xüsusilə bölgədə gedən proseslərə vahid prizmadan yanaşmaları, ərazi bütövlüyü, terrorçuluqla mübarizə kimi həssas məsələlərdə bir-birlərinin maraqlarını müdafiə etmələri daha mühüm əhəmiyyət kəsb edir. Təqdirəlayiq haldır ki, hər iki ölkənin siyasi rəhbərliyi indiki şəraitdə daha prinsipial mövqe nümayiş etdirirlər. Məsələnin bu tərəfinə toxunan Prezident İlham Əliyev qeyd edib ki, iyulun 12-də Ermənistanın Azərbaycana qarşı hərbi təxribatına qardaş Türkiyə Respublikası qəti mövqe bildirdi. Türkiyə Prezidentinin Tovuz hadisələri ilə bağlı birmənalı bəyanatlarını Azərbaycan xalqı yüksək qiymətləndirir. Azərbaycan da hər zaman qardaş Türkiyənin yanındadır və bütün məsələlərdə öz tərəddüdsüz dəstəyini nümayiş etdirir. Azərbaycan-Türkiyə strateji müttəfiqliyi və tərəfdaşlığı regionda sülhü və təhlükəsizliyi təmin edən, əməkdaşlığın inkişafına töhfə verən mühüm amildir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın isə Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı məktubda yazılır ki, ölkələr arasındakı "Bir millət, iki dövlət" şüarının tarixi bünövrəsini qoyan Qafqaz İslam Ordusu ortaq qürur mənbəyimiz və əbədi qardaşlığımızın timsalı olmuşdur. Bakıda olduğu kimi, Çanaqqalada da çiyin-çiyinə mübarizə aparan əcdadlarımızdan bizə miras qalan qardaşlığımız bu gün tale birliyimizin də mənəvi zəminini təşkil edir. Qeyd olunur ki, bu gün Türkiyə və Azərbaycan əlaqələri həm siyasi, həm iqtisadi, həm də hərbi sahədə mükəmməl şəkildə inkişaf edir. Tariximizdən gələn ilham və sarsılmaz əlaqələrimizdən aldığımız güc-qüvvətlə ölkələrimiz regionumuzun sabitliyinin təminatçısına çevrilmişdir.

Bu gün Azərbaycanla Türkiyəni təkcə ortaq mənəvi və milli dəyərlər birləşdirmir. Bizi həm də siyasi mahiyyət daşıyan ortaq iqtisadi layihələr, qarşıya qoyulan eyni hədəflər və müştərək siyasi maraqlar birləşdirir. Bütün bunlar onu göstərir ki, sarsılmaz olan Azərbaycan-Türkiyə müttəfiqliyinin və birliyinin böyük gələcəyi var.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Yalçın TOPÇU: "15 sentyabr tarixi Türkiyə-Azərbaycan qardaşlığının əbədiliyinin, sarsılmazlığının rəmzidir"

Qafqaz İslam Ordusunun şərəfli missiyası Azərbaycan və Türkiyənin dövlətçilik tarixinə qızıl hərflərlə yazılıb. Bakının 1918-ci ildə daşnak-bolşevik işğalından xilas olunması müasir Azərbaycan və Türkiyə dövlətlərinin birliyinin təməlidir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə Prezidentinin baş müşaviri Yalçın Topçu söyləyib.

Ümummilli Lider Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamını xatırladan baş müşavir deyib: "15 sentyabr Türkiyə-Azərbaycan birliyinin, Türkiyə-Azərbaycan qardaşlığının əbədilik, sarsılmazlıq rəmzidir. Nuru Paşanın komandanlığı ilə Azərbaycanın köməyinə çatan Qafqaz İslam Ordusu tarixi missiya həyata keçirdi. İki ölkənin qardaşlıq körpüsünün əbədi sütunları qoyuldu. 2018-ci ildə Azərbaycan paytaxtının Azadlıq meydanında Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda yaşadığımız xoş anlar xalqlarımızın yaddaşından heç zaman silinməyəcək".

Müasir dövrdə Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətlərinin birliyimizi daha da möhkəmləndirdiyini vurğulayan Yalçın



Topçu deyib: "Bakının işğaldan azad olunması münasibətilə keçirilən Paradda Türkiyə Silahlı Qüvvələrinin "Türk Ulduzları" möhtəşəm uçuşlarla səmada Azərbaycanın və Türkiyənin dostluğunun, qardaşlığının və qəlb birliyinin rəmzi olan ürək şəkli əks etdirdilər. Mavi Xəzərin sahillərində göstərilən bu uçuş-şou bütün dünyaya nümayiş etdirdi ki, Azərbaycan-Türkiyə qardaşlığı əbədi və sarsılmazdır".

Bakının işğaldan azad olunması üçün canlarından keçən şəhid və qazilərimizi ehtiramla yad edən Türkiyə Prezidentinin baş müşaviri fikirlərini belə tamamlayıb: "Atamız Nuru Paşanın Can Azərbaycan üçün söylədiyi "Azərbaycan uğrunda şəhid olmaq şərəfdir. Gərək olarsa yenə savaşar, yenə şəhid olarıq" sözləri bu gün də türk millətinin və Türkiyə dövlətinin qardaş Azərbaycanın düşmənlərinə qarşı qətiyyətli mövqeyidir".

# Azərbaycan və Türkiyənin hərbi təyyarələri Gəncə səmasında





Sentyabrın 15-də saat 15.00-dan etibarən Gəncə şəhəri üzərində Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələri aviasiya vasitələrinin nümunəvi uçuşları keçirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, uçuşlar Bakı şəhərinin işğalçı erməni-bolşevik birləşmələrindən azad olunmasının 102-ci ildönümü ilə əlaqədar təşkil edilib. Uçuşlara hər iki ölkənin döyüş təyyarələri və helikopterləri cəlb olunub.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Zəki Öztürk və şəhər ictimaiyyətinin nümayəndələri uçuşları izləyiblər.

Əllərində Azərbaycan və Türkiyənin bayraqlarını dalğalandıran gənclər tədbirə xüsusi ab-hava qatıblar.

Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksəksəviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Xalqlarımızın eyni soykökə, dilə, dinə, mədəniyyətə və bir çox bağlara malik olması bu iki ölkəni həmişə bir-birinə doğma edib, sevincli, kədərli günlərdə də biri digərinin yanında olub. Ulu Öndər Heydər Əliyevin bir millət, iki dövlət olaraq xarakterizə etdiyi Azərbaycan-Türkiyə arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir.

Bu gün Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin Gəncə səmasında birgə uçuşlar keçirməsi bunu bir daha nümayiş etdirdi.

# Bakı şəhərinin azad edilməsinin 102 illiyi ilə əlaqədar Şəhidlər xiyabanı və Türk Şəhidliyi ziyarət olunub









Bakı şəhərinin azad edilməsinin 102-ci ildönümü münasibətilə Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə, ideoloji və mədəniyyət mərkəzlərində silsilə tədbirlər keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 15-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyevin rəhbərliyi ilə nazirliyin bir qrup hərbi qulluqçusu və Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı səfiri Erkan Özoralın rəhbərlik etdiyi nümayəndə heyəti birlikdə Şəhidlər xiyabanını və Türk Şəhidliyini ziyarət edib.

Hər iki abidənin qarşısına Müdafiə Nazirliyinin və Türkiyənin ölkəmizdəki səfirliyinin adından qızılgül çələngi qoyulub, qərənfillər düzülüb və şəhidlərin xatirəsi ehtiramla yad olunub.

Tədbirdə dövlətlərimizin əlaqələrinin qədim tarixə, mehriban dostluq münasibətlərinə əsaslandığı və Türkiyənin Azərbaycanın vacib tərəfdaşı olduğu qeyd edilib, ölkələrimiz arasında əməkdaşlığın qardaşlıq münasibətləri üzərində qurulduğu və daim inkişaf etdiyi vurğulanıb.

# Bakının erməni-bolşevik işğalçılarından azad olunmasının 102-ci ildönümü münasibətilə onlayn videokonfrans keçirilib

Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun Bakını erməni-bolşevik işğalçılarından azad etməsinin 102-ci ildönümü münasibətilə sentyabrın 15-də Türkiyənin Azərbaycandakı səfirliyinin və "Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin birgə təşkilatçılığı ilə onlayn videokonfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan və Türkiyənin dövlət himnləri səsləndirildikdən sonra Bakının azad edilməsi uğrunda döyüşlərdə həlak olan şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral tədbir iştirakçılarını əlamətdar gün münasibətilə təbrik edərək bildirib ki, bu, eyni zamanda, Türkiyə və Azərbaycan qardaşlığının bayramıdır. 102 il əvvəl Osmanlı dövləti azərbaycanlı qardaşlarının dəvəti ilə Qafqaz İslam Ordusunu quraraq Azərbaycana göndərib. Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun zəfər yürüşünün zirvəsi 1918-ci il sentyabrın 15-də Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad etməsi olub. Bakı üzərinə hücumu uğurla başa çatdırmaq üçün Qafqaz İslam Ordusunun əsgər və zabitlərinin sayı 14 minə çatdırılıb. Bunların 8 mini Osmanlı, 6 mini isə azərbaycanlı əsgər və zabitlər idi. Qafqaz İslam Ordusunun töhfələri ilə qurulan Azərbaycan Xalq Cümhuriyyəti bu günlərimiz üçün böyük miras qoyub. Bu gün müstəqil Azərbaycan Respublikası Cümhuriyyətin əmanət qoyduğu mirasın təməlləri üzərində gələcəyə doğru inamla irəliləyir.

Səfir qeyd edib ki, Türkiyə 100 il əvvəl olduğu kimi, hər zaman qardaş Azərbaycanın yanındadır. Bu gün Türkiyə və Azərbaycan sevincini və kədərini paylaşan iki dövlətdir. Hazırda 15 sentyabr hər il daha böyük mərasimlərlə Azərbaycanda qeyd olunur. Qafqaz İslam Ordusunun Bakının xilasında, onun tarixi keçmişindəki rolunu gələcək nəsillərin bilməsi vacibdir.

Milli Məclisin deputatı, professor Anar İsgəndərov bildirib ki, XX əsrin əvvəllərində Qafqaz İslam Ordusu Azərbaycan Xalq Cümhuriyyətinə əsl qardaş yardımı etdi. 1918-ci ilin mayında Azərbaycanın müstəqilliyinin elan olunmasına baxmayaraq, ölkə ərazisinin bir hissəsi, Bakı və ətraf rayonlar hələ də erməni-bolşevik işğalı altında idi. Belə bir şəraitdə özünün çox ağır durumda olmasına baxmayaraq, Osmanlı dövləti Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru Paşanın komandanlığı ilə hərbi qüvvələrini respublikamıza göndərib. Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa edəndə onu ilk tanıyan dövlət də məhz Türkiyə olub. Azərbaycan tarixçiləri də Qafqaz İslam Ordusunun tarixi ilə bağlı araşdırmalara dövlət müstəqilliyimizin bərpasından sonra başlayıblar. 15 sentyabr Azərbaycan xalqının tarixində əhəmiyyətli hadisədir. Hər bir azərbaycanlı bu əlamətdar günün təbliğində mühüm rol oynamalıdır. Çünki Bakının xilası, onun milli şəhər simasının bərpa edilməsi Azərbaycan adlı dövlətin əbədi varlığına hesablanmış tarixi zəfərdir.

Qafqaz İslam Ordusunun xidmətlərini anmaq üçün konfransın təşkilatçılarına minnətdarlığını bildirən Anar İsgəndərov qeyd edib ki, ordunun Nuru Paşanın rəhbərliyi ilə Gəncədən Bakıya gəlməsi, bir neçə şəhərin azad edilməsi və sentyabrın 15-də şiddətli döyüşlər nəticəsində Bakının azad edilməsi tarixi hadisə idi. Qədirbilən Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq, şəhidlərin əziz xatirəsini daim qəlbində yaşadacaq.

"Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri Emin Həsənli diqqətə çatdırıb ki, Bakı uğrunda döyüşlərdə 5-ci Qafqaz diviziyası 1300-ə qədər şəhid verib. Ümumilikdə isə iyunun ortalarından sentyabrın 15-dək Qafqaz İslam Ordusunda döyüşlər zamanı şəhid olanların sayı isə təxminən 4 min nəfər olub. Azərbaycan da Çanaqqala savaşında üç mindən çox şəhid verib. Biz şəhidlərin əziz xatirəsini daim uca tuturuq. Bu gün Türkiyə Azərbaycana ordu quruculuğunda dəstək göstərir. Ümid edirik ki, erməni işğalı altındakı Azərbaycan əraziləri də düşməndən azad olunacaq.

Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib ki, 15 sentyabr Türkiyə-Azərbaycan qardaşlığının əbədiyyətə qədər davam edəcək şərəf tarixidir. 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusu tərəfindən Bakının işğaldan azad edilməsi XX əsr dövlətçilik tariximizdə ən əhəmiyyətli günlərdən biridir və olduqca strateji əhəmiyyətə malikdir.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında da böyük rolu olan Nağı bəy Şeyxzamanlı nəslinin nümayəndəsi Arifə Şeyxzamanlı, Türkiyənin görkəmli hərbi və siyasi xadimi Kazım Qarabəkir Paşanın qızı Timsal Karabəkir, ehtiyatda olan general Namiq Kamal Çalışqan, tarix elmləri doktoru, ehtiyatda olan polkovnik Mehman Süleymanov, tarixçi Nəsiman Yaqublu, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı və başqaları konfransda çıxış edərək mühüm tarixi məqamlara toxunublar. Tədbirdə, həmçinin Nuru Paşanın Bakıda abidəsinin ucaldılması və digər təkliflər səsləndirilib.

# Heydər Əliyev Fondunun dəstəyi ilə 62 təhsil müəssisəsi istifadəyə verilir

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə bu tədris ilində 62 təhsil müəssisəsi inşa və əsaslı təmir olunaraq müəllim və şagirdlərin istifadəsinə verilir:

1. Bakı şəhəri Zirə qəsəbəsi 2 saylı uşaq bağçası, 80 yerlik
2. Bakı şəhəri Zirə qəsəbəsi 122 saylı tam orta məktəb, 100 şagird yerlik
3. Bakı şəhəri Binə qəsəbəsi 218 saylı körpələr evi-uşaq bağçası, 80 yerlik
4. Bakı şəhəri Qala qəsəbəsi 216 saylı tam orta məktəb, 624 şagird yerlik
5. Bakı şəhəri Şağan qəsəbəsi 212 saylı uşaq bağçası, 80 yerlik
6. Bakı şəhəri V.Mustafazadə adına 2 saylı Uşaq İncəsənət Məktəbi
7. Bakı şəhəri "Qobu Park-3" yaşayış kompleksində Füzuli rayonu 4 saylı tam orta məktəb, 960 şagird yerlik
8. Bakı şəhəri "Qobu Park-3" yaşayış kompleksində uşaq bağçası, 280 yerlik
9. Gəncə şəhər İdman Liseyi, 360 şagird yerlik
10. Samux rayonu Sərkar kənd tam orta məktəbi, 800 şagird yerlik
11. Samux rayonu Sərkar kənd körpələr evi-uşaq bağçası, 100 yerlik
12. Samux rayonu İ.Nəsimi adına Ziyadlı kənd tam orta məktəbi, 523 şagird yerlik
13. Samux rayonu Ziyadlı kənd körpələr evi-uşaq bağçası, 60 yerlik
14. Lənkəran rayonu S.Əliyev adına Haftoni qəsəbə tam orta məktəbi, 624 şagird yerlik
15. Lənkəran rayonu V.Hüseynov adına Nərimanabad qəsəbə tam orta məktəbi, 420 şagird yerlik
16. Lənkəran rayonu C.Əzimov adına Viravul kənd tam orta məktəbi, 360 şagird yerlik
17. Lerik rayonu M.Qafarov adına Siyov kənd tam orta məktəbi, 132 şagird yerlik
18. Lerik rayonu Piran kənd körpələr evi-uşaq bağçası, 60 yerlik
19. Astara rayonu Ərçivan qəsəbə körpələr evi-uşaq bağçası, 80 yerlik
20. Masallı rayonu Səmidxan kənd körpələr evi-uşaq bağçası, 100 yerlik
21. Masallı rayonu Mahmudavar kənd uşaq bağçası, 60 yerlik
22. Masallı şəhəri 4 saylı uşaq bağçası, 100 yerlik
23. Cəlilabad rayonu Muğan kənd tam orta məktəbi, 500 şagird yerlik
24. Cəlilabad rayonu Privolnoye kənd körpələr evi-uşaq bağçası, 100 yerlik
25. Yardımlı rayonu Yolocaq kənd körpələr evi-uşaq bağçası, 40 yerlik
26. Biləsuvar rayonu Əliabad kənd körpələr evi-uşaq bağçası, 40 yerlik
27. Şamaxı şəhəri M.Hadi adına 9 saylı tam orta məktəb, 800 şagird yerlik
28. Şamaxı şəhəri 2 nömrəli tam orta məktəb, 1180 şagird yerlik
29. Şamaxı şəhəri Şəhriyar qəsəbə tam orta məktəbi, 380 şagird yerlik
30. Şamaxı rayonu Quşçu kənd körpələr evi-uşaq bağçası, 40 yerlik
31. Füzuli rayonu Bala Bəhmənli kənd tam orta məktəbi, 624 şagird yerlik
32. Füzuli rayonu Əhmədbəyli kənd uşaq bağçası, 60 yerlik
33. Füzuli rayonu Mahmudlu-2 kənd uşaq bağçası, 60 yerlik
34. Bərdə şəhəri 4 saylı tam orta məktəb, 624 şagird yerlik
35. Tovuz rayonu Ş.İ.Xətai adına Köhnəqala kənd orta məktəbi, 480 şagird yerlik
36. Tovuz şəhəri A.Qasımov adına tam orta məktəb, 624 şagird yerlik
37. Tovuz rayonu Dondar Quşçu kənd tam orta məktəbi, 620 şagird yerlik
38. Tovuz rayonu Y.Sadıqov adına Bozalqanlı kənd tam orta məktəbi, 1200 şagird yerlik
39. Qazax rayonu İ.Şıxlı adına Kosalar kənd tam orta məktəbi, 1176 şagird yerlik
40. Ucar rayonu Qarabörk kənd tam orta məktəbi, 420 şagird yerlik
41. Ucar şəhəri 6 saylı körpələr evi-uşaq bağçası, 80 yerlik
42. Salyan rayonu A.Əliyev adına Aşağı Kürkənd kənd tam orta məktəbi, 360 şagird yerlik
43. Salyan şəhəri 9 saylı körpələr evi-uşaq bağçası, 60 yerlik
44. Salyan rayonu Arbatan kənd tam orta məktəbi, 600 şagird yerlik
45. Neftçala rayonu Xıllı qəsəbə R.Gözəlov adına 1 saylı tam orta məktəbi, 864 şagird yerlik
46. Saatlı rayonu Orta Muğanlı kənd tam orta məktəbi, 432 şagird yerlik
47. Kürdəmir şəhəri H.Həsənov adına 7 saylı körpələr evi-uşaq bağçası, 40 yerlik
48. Ağdaş şəhəri B.Gözəlova adına 6 saylı körpələr evi-uşaq bağçası, 60 yerlik
49. Ağdaş şəhəri 5 saylı körpələr evi-uşaq bağçası, 80 yerlik
50. Ağdaş rayonu Yenicə kənd orta məktəbi, 420 şagird yerlik
51. Göyçay şəhəri C.Mövsümov adına 3 saylı körpələr evi-uşaq bağçası,40 yerlik
52. Göyçay şəhəri 8 nömrəli uşaq bağçası, 60 yerlik
53. Quba rayonu Birinci Nügədi kənd məktəbi, 792 şagird yerlik
54. Xaçmaz şəhəri C.Cabbarlı adına 6 nömrəli tam orta məktəb, 1176 şagird yerlik
55. Mingəçevir şəhəri 13 saylı tam orta məktəb, 624 şagird yerlik
56. Zərdab şəhəri 2 nömrəli körpələr evi-uşaq bağçası, 120 yerlik
57. Ağsu rayonu Musabəyli kənd tam orta məktəbi, 132 şagird yerlik
58. Ağsu rayonu Pirhəsənli kənd uşaq bağçası, 60 yerlik
59. İsmayıllı rayonu Quşencə kənd uşaq bağçası, 40 yerlik
60. İsmayıllı rayonu İvanovka kəndində Uşaq bağçası kompleksi, 80 yerlik
61. Şəki rayonu Cəyirli kənd orta məktəbi, 432 şagird yerlik
62. Gədəbəy rayonu Qoşabulaq kənd 2 nömrəli tam orta məktəbi, 180 şagird yerlik.

# Təhsil milli strategiyanın, ümumi inkişafın vacib sahəsidir

*Əvvəli 1-ci səh.*

Müasirləşdirmə ilk növbədə qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların ölkənin sosial-iqtisadi həyatına uğurlu tətbiqi ilə bağlıdır. Bunun üçün prioritet istiqamət ölkədə insan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsidir. Çünki insan kapitalının inkişafı iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən daha effektli faydalanması prosesində ən mühüm şərtlərdəndir. Ölkənin təhsil sistemi isə burada başlıca vəzifə daşıyır.

Son illər ölkədə təhsilin inkişafı istiqamətində mühüm addımlar atılmaqdadır. Onun normativ hüquqi bazası təkmilləşdirilir, maddi-texniki təminatı istiqamətində dövlət başçısının müvafiq sərəncamlarına əsaslanan geniş tədbirlər həyata keçirilir. Bu məqsədlə respublikanın müxtəlif şəhər və rayonlarında 3700-dək məktəb binası tikilməklə yanaşı, mövcud təhsil obyektlərində əsaslı təmir-bərpa işləri aparılır. Bundan başqa, təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi də əhəmiyyətli dərəcədə genişlənməkdədir.

Aparılan siyasətə uyğun olaraq təhsilə ayrılan dövlət xərcləri ilbəil artırılır. Bununla yanaşı, Azərbaycanda insan kapitalının inkişafı üzrə yeni uzunmüddətli çağırışlar təhsil sahəsinin maliyyələşdirilməsində mühüm tədbirlərin həyata keçirilməsini zəruri edir.

2020-2021-ci tədris ilinin ənənəvilikdən uzaq formatda təşkili də bu sahədə müəyyən səbəblərə və məqsədlərə əsaslanır. Bunun da ən vacibi şagirdləri, təhsil işçilərini, ümumilikdə, vətəndaşlarımızı pandemiyadan qorumaqdır. COVID-19 pandemiyasının fəsadlarına, iqtisadi tənəzzülə, neft gəlirlərinin azalmasına baxmayaraq, ölkədə təhsil ocaqlarının tikintisi davam etdirilib, həmçinin heç bir sosial layihə ixtisar olunmayıb. 2020-ci ildə 147 məktəbin tikintisi nəzərdə tutulub ki, onlardan 45-i Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilib. Heydər Əliyev Fondunun fəaliyyəti dövründə sosial sahədə həyata keçirdiyi tədbirlər, o cümlədən məktəblərin, uşaq bağçalarının tikintisi sahəsində gördüyü işlər, fondun "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı bu sahədə bir çox müsbət nəticələrin əldə edilməsinə imkan yaradıb.

Son 2-3 ildə modul tipli məktəblərin tikintisi ilə bağlı fikirlərini geniş ictimaiyyətə açıqlayarkən dövlət başçısı bu məsələnin də aktuallığını diqqət mərkəzində saxlayıb. Bu il modul tipli daha 60 məktəbin tikintisi həyata keçirilir.

Prezident İlham Əliyev xalqın intellektual potensialının yüksəlməsi, gənclərin savadlı, bilikli, vətənpərvər və milli ruhda böyüməsinin cəmiyyətin və dövlətin inkişafında müstəsna əhəmiyyətini görür, müstəqil dövlətimizi daha da inkişaf etdirəcək, onun müstəqilliyini qoruyacaq yeni nəslin formalaşdırılmasını başlıca vəzifələrdən biri hesab edir. Məhz bu istiqamətdə ardıcıl, məqsədyönlü, düşünülmüş siyasət həyata keçirilir.

Bəzi faktlar və rəqəmlərə nəzər salmaqla fikrimizi əsaslandıra bilərik. Xatırlatmaq yerinə düşər ki, 2003-cü ildən ötən dövr ərzində Azərbaycanda təhsil ocaqlarının tikintisi və ya əsaslı bərpa olunması geniş ictimaiyyət tərəfindən daim dövlət başçısına ünvanlanan çoxsaylı minnətdarlıq və təşəkkür məktublarında, eləcə də bilik səviyyəsinə görə məzunların ali məktəblərə yüksək ballarla qəbul faktlarında da özünü göstərməkdədir. Məhz həmin nəticələrin əldə edilməsi son 17 ildə Azərbaycanda 3700-ə qədər məktəbin tikilib və ya əsaslı şəkildə təmir edilməsinin də bəhrəsidir.

2004-cü ildə bəyan edilmiş "qara qızıl"ı insan kapitalına çevirmək strategiyasında elmin və təhsilin oynadığı başlıca rol daim diqqət mərkəzində saxlanıb. Əsas istiqamət Azərbaycanda həm təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi, həm də onun keyfiyyətinin artırılmasıdır. Bu vacib sahəyə dövlət qayğısının nəticəsidir ki, məktəblilər beynəlxalq olimpiadalarda yüksək yerlər qazanırlar. Ali təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək bal toplanılıb, müəllimlərin əməkhaqları artırılıb, diaqnostik qiymətləndirmədən keçənlər yüksək maaşla təmin olunublar. Bir sözlə, respublikada büdcədən təhsil sahəsinə ayrılan xərclər ikinci yerdədir.

Dövlət başçısı bu gün qloballaşma adı altında böyük siyasətin təzahürlərinin görünməsinə də diqqət çəkərək bildirdi ki, gənclərin beyini bəzi xarici dairələr tərəfindən zəhərlənir, gənclər yoldan çıxarılır, onlar yalan informasiyalarla, böhtan, şər, təxribat xarakterli məlumatlarla üzləşirlər: "Gənclər bəzi hallarda yəqin edə bilmirlər ki, hansı informasiya yalandır, hansı informasiya doğrudur. Ona görə müəllimlərdən çox şey asılıdır. Mən şadam ki, bu gün Azərbaycanda yetişən gənclər məhz bu yüksək meyarlara cavab verir. Əminəm ki, bu müsbət meyillər davam edəcək və bizim uşaqlarımız, gənclərimiz bilik, savad əldə edərək gələcəkdə Vətənə dəyərli vətəndaşlar kimi xidmət edəcəklər və ümumi inkişafımıza öz töhfələrini verəcəklər".

Təhsilin tələbə-gənclərin qloballaşmanın mənfi təsirlərindən qorunmasında da rolu mühümdür. Bu məsələdə təhsil-məktəb və ailə amili geniş ictimaiyyətin nəzərindən kənarda qala bilməz. Ona görə son illər gənclərimizin bir sıra vacib, əhəmiyyətli layihələrdə iştirakı, dövlət idarəetmə orqanlarında yüksək vəzifələrə irəli çəkilmələri də təhsilin verdiyi mənfəətlər sırasındadır. Azərbaycan Prezidenti İlham Əliyev də məhz bu amilləri nəzərə alaraq, ilk növbədə gənclərə inam və etibar göstərilməsini vacib hesab etməklə yanaşı, uşaqların, yeniyetmələrin xalqımıza, milli adət-ənənələrimizə zidd dəyərlərdən qorunmasını, gənclərdə vətənpərvərlik, milli ruh aşılanmasının vacibliyini bildirir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***



Ağ köynəkləri, məktəbli formaları, çantaları, dəftərləri, qələmləri, rəngli karandaşları lap çoxdan hazırdı, yayın ortasından...
Hər gün formalarını geyinir, çantalarını da çiyinlərinə atıb güzgünün qarşısında birdən-birə necə məktəbliyə çevrildiklərini heyrətqarışıq heyranlıqla süzürdülər...
Ana, məktəbə nə zaman gedəcəyəm?
Baba, məktəbə getməyimə neçə gün qalıb?
Qaçıb nənələrin yanına, ətəklərindən yapışıb elə hey məktəbdən danışırdılar...
Ayaq səslərini eşidib qapıya yüyürür, işdən gələn atalarına məktəblə bağlı suallar yağdırırdılar...
Və bu ilin birinciləri adi sualları ilə özləri də bilmədən böyüklərin qəlbində həyəcan fırtınaları qoparır, cavabsız sualların məngənəsində sıxırdılar...
Onlarsa deyə bilmirdilər ki, dünya hələ indiyə qədər görünməmiş bir bəla ilə üz-üzədir və bu təhlükəli şəraitdə məktəblərin açılıb-açılmayacağı, şagirdlərin məktəbə gedib-getməyəcəyi bəlli deyil...

# Bu ilin birinciləri

## Ölkədə pandemiya sınaqlı təhsil ili start götürdü

### Bilik Gününüz mübarək!

Bəli, aylardır 2020-2021-ci tədris ilinin necə başlayacağı dünya gündəmindəki ən vacib müzakirə mövzusu idi. Bu müzakirələr fonunda isə bilinən bir gerçəklik də vardı. Pandemiyanın həyatımızı alt-üst etdiyi, bütün planlarımızı özünün bildiyi kimi diktə etdiyi bir zamanda adət etdiyimiz məktəb vərdişlərimizin də yerli-dibli dəyişəcəyi gün kimi aydın idi...

Sevindiricidir ki, Azərbaycanın COVID-19-la mübarizədə özünəməxsus model ortaya qoyması və ölkə ərazisində virusu nəzarətolunan səviyyəyə salması təhsil ictimaiyyətinin intizarına da son qoymağa imkan yaratdı. Təlim-tədris müəssisələrimizin pandemiyanın şərtlərinə uyğunlaşdırılmış şəkildə fəaliyyətinə qərar verildi. Belə ki, ilk olaraq sentyabrın 15-dən ibtidai siniflərdə dərslər keçirilməyə başlandı. Yuxarı sinif şagirdləri isə onlayn tədrisə başladı və zamanla bu siniflərdə təhsil alan şagirdlər üçün də ənənəvi təhsil bərpa ediləcək.

Beləliklə, nəhayət, ötən gün bütün məktəblərimizdə səslənən ilk zəng müəllim və şagirdləri məktəbə səslədi.

Prezident İlham Əliyev yeni dərs ilinin başlanması və Bilik Günü münasibətilə müəllimləri, tələbələri və şagirdləri təbrik etdi, yeni şəraitdə başlanan dərs ilinin uğurlu olacağına əminliyini ifadə etdi: "Azərbaycan pandemiyanın ilk günlərindən çox operativ, çevik addımlar ataraq xalqımızı böyük bəladan qurtara bilmişdir. Bildiyiniz kimi, mart ayının əvvəlindən məktəblər, ali məktəblər, bütün təhsil müəssisələri bağlandı və bunun əsas məqsədi uşaqları, yeniyetmələri xəstəlikdən qorumaq idi. Təbii ki, bu, təhsil sahəsinə mənfi təsir göstərmişdir. Ancaq hesab edirəm ki, biz görülmüş tədbirlər nəticəsində pandemiyanın təhsilə olan mənfi fəsadlarının böyük hissəsini aradan qaldıra bildik. Əminəm ki, yeni şəraitdə başlanan dərs ili uğurlu olacaq, bizim şagirdlərimiz, tələbələrimiz yaxşı biliklər alacaqlar, müəllimlər də öz vəzifə borcunu şərəflə yerinə yetirəcəklər".

Birinci vitse-prezident Mehriban Əliyeva da Bilik Günü münasibətilə "Instagram" hesabında paylaşım edərək məktəbliləri və tələbələri təbrik edib: "Əziz məktəblilər və tələbələr! Sizi yeni dərs ilinin başlanması münasibətilə təbrik edirəm! Ümid edirəm ki, yüksək nəticə əldə etmək və əla qiymətlər almaq, bilikli, savadlı şəxs və Azərbaycanın layiqli vətəndaşı olmaq üçün əlinizdən gələni əsirgəməyəcəksiniz. Hər birinizə möhkəm cansağlığı, gümrahlıq, zehin açıqlığı, əzmkarlıq və öyrənmək həvəsi arzulayıram! Bilik Gününüz mübarək!"

### Nə valideyn izdihamı vardı, nə balacaların əllərini bəzəyən gül-çiçəklər, şarlar...

Biz də Bilik Gününü Xəzər rayonu Binə qəsəbəsi Əmirəhməd Quliyev adına 121 nömrəli tam orta məktəbdə qarşıladıq.

Təbii ki, yeni formada, öyrəşmədiyimiz qaydada. Nə valideyn izdihamı vardı, nə balacaların əllərini bəzəyən gül-çiçəklər, şarlar, nə də təntənəli açılış mərasimi...

Builki Bilik Günü tamamilə sakitliyə, qaydalara, nizam-intizama köklənmişdi...

Həyətdə xüsusi nişanlanmış yerlərdə qatar-qatar düzülüb intizarla ora-bura boylanan birincilərlə söhbət edirik.

Zərifə deyir ki, məktəblərin açılmasına çox sevinib və dünəndən bütün dərs ləvazimatlarını çantasına yığıb hazırlayaraq, məktəbə yollanacağı anı gözləyib. Nəriman isə sinif yoldaşları ilə tanış olacağı üçün çox həyəcanlıdır. "Mən əlaçı olacam" deyə Kənan fərəhlə söyləyir. Raul nənəsinə söz verib ki, dərslərini əla oxuyub həkim olacaq və o, xəstələnsə dərhal sağaldacaq...

Diqqət etdik ki, söhbət etdiyimiz bütün balacalar, demək olar ki, pandemiya qaydalarını əzbər bilir və bu qaydalara əməl etdiklərini söyləyirdilər. O da maraqlı idi ki, fikrini öyrəndiyimiz əksər uşaqlar böyüyəndə həkim olacaqlarını dilə gətirir, insanların sağlamlığına qulluq edəcəklərini deyirdilər.

### Məktəblərin açılması təhsil ictimaiyyəti üçün bayramdır

Müşahidələrimizə əsasən deyə bilərik ki, uşaqlardan çox az bir qismi maska taxmışdı. Ümumdünya Səhiyyə Təşkilatı və UNICEF-in tövsiyələrinə əsasən 12 yaşdan aşağı uşaqların maska taxması tövsiyə olunmur və bu, valideynlərin istəyindən asılıdır.

Övladının maska taxmasını istəyənlərdən biri də Şəhla xanımdır. O, söylədi ki, evlərində yaşlı şəxs olduğu üçün daha ehtiyatlı olmağa qərar verib və qızının məktəbdə maskadan istifadə etməsini istəyir.

Fəridə adlı digər valideyn isə deyir ki, gigiyena qaydalarına riayət etməklə, sosial məsafə saxlamaqla və əlləri tez-tez spirtləməklə infeksiyadan qorunmaq mümkündür. Bütün bunlara əməl etdiyi üçün övladının maskadan istifadəsinə ehtiyac görmür.

### Bu ilin Bilik Günü tarixə həkk olundu

Artıq vaxtdır və şagirdlər temperaturları ölçülərək və əlləri spirtlənərək bir-bir məktəbə daxil olub, sinif otaqlarına yollanırlar.

Müəllimləri ilə tanış olub, hərflərin, rəqəmlərin sirlərini öyrənmə yoluna qədəm qoyurlar.

İbtidai sinif müəllimi Zülfiyyə Əliyeva deyir ki, çalışırlar uşaqları pandemiyanın tələb etdiyi yeni qaydalara uyğunlaşdırsınlar. Həmçinin balacaların yaşına uyğun formada onlara koronavirus təhlükəsini izah edərək infeksiyadan qorunma yollarını öyrədirlər: "Tədris müəssisələrinin açılması təhsil ictimaiyyəti üçün bayramdır. Çox sevinirik ki, müəyyən şərtlərlə də olsa məktəblər açıldı. İndi bütün müəllimlərin, valideynlərin, ümumiyyətlə, hər kəsin ümdə vəzifəsi o olmalıdır ki, qoyulan tələblərə məsuliyyətlə əməl edərək, təhsil müəssisələrinin pandemiyadanəvvəlki şəraitdə fəaliyyət göstərməsinə nail olaq".

İbtidai sinif müəllimi Məlahət Əliyeva da iki-üç günlük olsa belə dərslərin başlamasının çox sevindirici hal olduğunu bildirir, uşaqlarla əyani münasibətin, üz-üzə dərs keçməyin daha effektiv olduğunu söyləyir: "Təbii ki, onlayn formada da dərslərimizi davam etdiririk ki, uşaqlar dərslərdən geri qalmasın, oxusunlar, gələcəkləri yaxşı olsun. İnşallah, ölkəmiz bu çətinlikdən də qurtulacaq və bütün sahələr üzrə həyatımız normal məcraya qayıdacaq".

Müəllimə Tahirə Xanlarova bildirir ki, pandemiya şəraitinin tələblərinə uyğun həyata keçirilən onlayn təhsil şagirdlərin dərsdən aralı düşməsinə imkan vermədi. Amma xüsusilə ibtidai siniflərin əyani formada təhsil almaları vacibdir və artıq ölkəmizdə buna nail olunub: "Düşünürəm ki, qoyulan qaydalara əməl edərək, tezliklə ənənəvi təhsil formasına qayıdacağıq".

Qeyd edək ki, yeni tədris ilində ilk dərslər I- IV siniflərdə (əyani formada) "Gigiyena qaydalarına necə əməl edirəm?", V-IX siniflərdə (distant formada) "Müstəqil öyrənmə bacarıqlarına yiyələnmək zamanın tələbidir", X-XI siniflərdə (distant formada) "Məsuliyyətli vətəndaş qüdrətli dövlət deməkdir" mövzularına həsr olunmuşdu.

Bəli, bu ilin Bilik Günü də yeni qaydalar, şərtlərlə və heç zaman rast gəlinməyən formada tarixə həkk olundu.

Və pandemiya sınaqları ilə dolu təhsil ili start götürdü. Əminik ki, bütün sahələrdə olduğu kimi, təhsilimiz də bu imtahandan bacarıqla adlayaraq təhlükəsiz gələcəyə yol alacaq...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Keçmiş ekoloji fəlakət zonasında yaradılan nəhəng sənaye parkı

## Burada Peşə Təhsil Mərkəzinin fəaliyyətə başlaması iqtisadi inkişafın növbəti göstəricisidir

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyevin sözügedən mərkəzin açılışında iştirak etməsi bu hadisənin necə önəmli olduğuna bir daha dəqqət çəkir. Belə ki, bu cür müasir bir Peşə Təhsil Mərkəzinin məhz Sumqayıt Kimya Sənaye Parkında açılması təsadüfi deyil. Dövlətimizin iqtisadi siyasətinin mühüm tərkib hissəsi olan sənayeləşmədə bu parkın özünəməxsus rolu var. İndi ölkə iqtisadiyyatının qarşısında dayanan əsas məqsədlərdən biri tələbatın ödənilməsində yerli məhsulların payının artırılması, ixrac potensialının yüksəldilməsi, ümumilikdə, neft-qaz amilindən asılılığın daha da azaldılmasıdır. Sumqayıt Kimya Sənaye Parkı bu yolda inam və uğurla addımlayır.

Burada məhsul istehsalı və ixracı istiqamətində müsbət dinamika mövcuddur. Keçən il parkda 823 milyon manatlıq məhsul istehsal edilib və bunun təqribən 33 faizi ixrac olunub. Cari ilin birinci yarısında isə 534 milyon manatlıq məhsul buraxılıb. Bununla da Sumqayıt Kimya Sənaye Parkının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 9,3 faiz təşkil edib. Qeyri-neft sənaye məhsullarının ixracında parkın xüsusi çəkisi 20 faiz olub. Daha bir mühüm göstərici hazırda parkda fəaliyyət göstərən müəssisələrdə 5500-dən çox insanın daimi işdə çalışmasıdır.

Prezident İlham Əliyev Peşə Təhsil Mərkəzinin açılışında bu barədə demişdir: "Biz daxili tələbatı nə qədər mümkünsə, yerli məhsullar hesabına təmin etməliyik. Burada Sumqayıt şəhərinin və xüsusilə Kimya Sənaye Parkının mühüm rolu var. Çünki biz son illərdə bu işləri görməklə buna böyük dərəcədə müvəffəq olmuşuq. İndi əsas işimiz ondan ibarətdir ki, baxmalıyıq, harada bizdə idxaldan asılılıq daha böyükdür və bunu əvəzləmək mümkündürsə, bunun üçün xammal varsa, yaxud da texniki-iqtisadi əsaslandırma buna imkan verirsə, mütləq həmin sahələrə böyük diqqət göstərilməlidir. Belə təşəbbüs göstərən şirkətlərə həm rezident statusu verilməlidir, eyni zamanda dövlət tərəfindən onlara kömək göstərilməlidir, güzəştli kreditlər ayrılmalıdır ki, biz idxaldan asılılığımızı maksimum dərəcədə azaldaq. Çünki hər bir ölkə buna çalışır və xüsusilə əhalisi artan ölkə - Azərbaycan buna mütləq çalışmalıdır".

Sumqayıt Kimya Sənaye Parkında ixracyönümlü və idxalı əvəzləyə biləcək istehsalat sahələrinin yaradılmasına önəm verilir. Məsələn, burada Siqaret fabriki fəaliyyətə başlayıb və artıq statistikadan görünür ki, idxaldan asılılıq getdikcə azalır. 300 milyon manata qənaət etmək mümkün olub.

Fabrikin inkişaf potensialı da var. Prezident müəssisədə ikinci, üçüncü xətlərin də qurulmasını, istehsalın artırılmasını və buraxılacaq məhsulun hamısının ixraca getməsini tövsiyə edib. Müəssisənin genişləndirilməsi kənd təsərrüfatının tütünçülük sahəsinin inkişafına da təkan verəcək. Çünki hazırda siqaret istehsalında emal olunmuş tütün xaricdən alınır.

Sumqayıt Kimya Sənaye Parkı qısa müddətdə uğurlu yol keçib. Yeniləşən, güclənən Azərbaycanı onun da timsalında aydın görmək mümkündür.

Xatırladaq ki, İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Sumqayıt Kimya Sənaye Parkı" MMC Prezident İlham Əliyevin 21 dekabr 2011-ci il tarixli fərmanına əsasən yaradılıb. 2013-cü il oktyabrın 3-də isə dövlət başçısının iştirakı ilə parkın təməlqoyma mərasimi keçirilib.

Sumqayıt şəhərində yerləşən və nəhəng infrastruktura malik parkın ərazisi 508 hektardan çoxdur. Əvvəllər burada ömrünü başa vurmuş, köhnəlib dağılmış müəssisələr yerləşib. Yaxın keçmişdə ekoloji fəlakət zonası olan bu ərazidə indi neçə-neçə gərəkli müəssisə yaradılıb.

2015-ci il oktyabrın 25-də parkın rezidentləri olan "Azertexnolayn" MMC-nin Texniki avadanlıqlar zavodunun açılışı və "SOCAR Polymer" MMC-nin Yüksək sıxlıqlı polietilen zavodunun təməlqoyma mərasimi keçirilib. 2017-ci il dekabrın 15-də 3 müəssisənin təməli qoyulub və 4 müəssisə açılıb. 2018-ci il iyulun 18-də "SOCAR Polymer" MMC-nin Polipropilen istehsalı zavodu istifadəyə verilib. Həmin il noyabrın 16-da isə parkda yerləşən Ferroərintilər zavodunun, Siqaret fabrikinin və İnşaat Kimyəviləri zavodunun açılışı olub. 2019-cu il yanvarın 16-da Karbamid zavodu, 2019-cu il fevralın 18-də "SOCAR Polymer" MMC-nin Yüksək sıxlıqlı polietilen istehsalı zavodu istismara daxil edilib. Nəhayət, bu il aprelin 6-da "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışı olub.

Beləliklə, parkın ərazisinin 80 faizdən çoxunda artıq müəssisələr fəaliyyət göstərir. Yaxın iki-üç ildə qalan sahənin də dolacağı gözlənilir. Odur ki, Prezident qarşıya yeni vəzifələr qoymuşdur: "Yeni ərazilər lazımdır. Burada, Sumqayıtın ətrafında belə ərazilər çoxdur. Siz bəlkə o ərazilər üçün də artıq indidən plan işləyib tərtib edəsiniz ki, - o yerlərin təmizlənməsi, kommunikasiyaların çəkilməsi və digər lazımi məsələlər, - bu iş dayanmasın. Çünki xarici investorların ölkəmizə marağı artır, mən yerli investorları da istiqamətləndirmişəm ki, Azərbaycana pul qoysunlar. Beləliklə, burada inkişaf o qədər sürətli olmalıdır ki, həm işsizlik aşağı səviyyədə olsun, həm idxaldan asılılıq minimuma endirilsin, həm də ixrac qabiliyyətli məhsullar istehsal edilsin".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Nizami rayonunda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib





Sentyabrın 15-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Nizami rayonu, Cəmşid Naxçıvanski küçəsində yerləşən, 1500 nəfərə yaxın sakinin yaşadığı 88, 90, 92 saylı binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

IDEA İctimai Birliyinin icraçı direktoru Surxay Şükürov KİV nümayəndələrinə müsahibəsində bildirib: "Yaşıllıqların şəhər ətrafındakı insanların sosial həyatı və sağlamlığı üçün faydasını nəzərə alaraq İctimai Birliyin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 2017-ci ildən Bakının abadlaşdırmaya ehtiyacı olan həyətləri, parkları və meydançaların bərpasına, yaxşılaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi həyata keçirilir. Layihə başlayandan etibarən bizə yüzlərlə vətəndaşdan müraciətlər daxil olub. Bu müraciətlərə ardıcıl olaraq baxılır və onlar qiymətləndirilir. Hazırda pandemiya ilə əlaqədar bəzi yubanmalar, gecikmələr olub. Amma artıq bütün işlər bərpa olunub. Ümidvaram ki, biz yaxın zamanlarda bir çox belə gözəl açılışlar edəcəyik və insanların belə abad yerdə, açıq havada vaxt keçirməsinə şərait yaratmağa öz töhfəmizi verəcəyik".

Abadlaşdırılan növbəti həyətdə sağlamlıq imkanları məhdud olan insanların da rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, futbol və şahmat meydançaları, uşaqlar üçün oyun meydançası salınıb. Eyni zamanda, ərazidə 8 söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq həyətdə yeni işıqlandırma dirəkləri, təhlükəsizlik kameraları quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq xüsusi karantin rejiminin qaydalarına riayət etməklə 30 ağac əkilib və 1330 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Yenilənmiş həyətdə karantin dövrünün tələblərinə uyğun olaraq tibbi-profilaktiki tədbirlər həyata keçirilib, dezinfeksiya dispenserləri qoyulub, karantin rejimi qaydalarına riayət olunması ilə bağlı xəbərdarlıq edən maarifləndirici lövhələr quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bunonla əlaqədar paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# SOCAR Rumıniyada yeni yanacaqdoldurma məntəqəsi açıb

"Əsrin müqaviləsi"nin imzalanmasının 26-cı ildönümü və "Neftçilər Günü" peşə bayramı ərəfəsində SOCAR Rumıniyada növbəti - 50-ci yanacaqdoldurma məntəqəsini (YDM) istifadəyə verib.




Yeni məntəqə xarici turistlərin və yerli sakinlərin daha çox səfər etdiyi, ölkənin əsas turizm mərkəzlərindən biri olan Sibiu regionunda açılıb. Sözügedən məntəqə bu regionda müştərilərin ixtiyarına verilən sayca 3-cü YDM-dir.

SOCAR-ın Rumıniya nümayəndəliyinin rəhbəri Həmzə Kərimov bildirib ki, Rumıniyada investisiya layihələrini uğurla həyata keçirən SOCAR YDM şəbəkəsini genişləndirməkdə davam edir.

"Bu ilin sonunadək Rumıniyada SOCAR yanacaqdoldurma məntəqələrinin sayını 60-a çatdırmağı planlaşdırırıq. Bildiyiniz kimi, cari ildə bütün dünya koronavirus pandemiyasından əziyyət çəkir. COVID-19 virusu dünya, o cümlədən Rumıniya iqtisadiyyatına təsirsiz ötüşməyib. Amma buna baxmayaraq, SOCAR Rumıniyada cari ilin ilk 6 ayını mənfəətlə başa vurub, 2020-ci il üçün qarşıya qoyulan strateji inkişaf planını da 100 faiz həyata keçirib" - deyə H.Kərimov əlavə edib.

"SOCAR Petroleum SA"nın İnkişaf Departamentinin müdiri Dan Dumitraçe isə deyib ki, hər bir YDM-də olduğu kimi, bu məntəqədə də müştərilərə benzin və dizel yanacaqları, həmçinin məntəqənin ərazisindəki "Nar" kafedə yerli və Azərbaycandan gətirilən məhsulların satışı həyata keçirilməkdədir. Onun sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin "Made in Azerbaijan" brendinin təbliği istiqamətindəki siyasətinə uyğun olaraq məntəqələrdə Azərbaycan guşəsi yaradılıb: "SOCAR-ın ölkə üzrə bütün məntəqələrində quraşdırılan monitorlarda mütəmadi olaraq Azərbaycanın təbliği istiqamətində videoçarxlar da nümayiş olunur. Hazırda SOCAR Rumıniyanın 24 regionunda "SOCAR" brendli məntəqəyə malikdir".

Xatırladaq ki, SOCAR Rumıniyadakı fəaliyyətini 2011-ci ildə yaradılmış "SOCAR Petroleum SA" şirkəti vasitəsilə həyata keçirir.

# "Azərişıq" ASC Tovuzun Ağdam kəndində yenidənqurma işlərinə start verib






**Erməni silahlı qüvvələrinin təxribat törədərək Ağdam kəndini atəşə məruz qoyması nəticəsində yaşayış evləri ilə yanaşı, elektrik enerjisi xətlərinə də ciddi zərər dəyib.**

Bununla belə "Azərişıq" ASC-nin ərazidəki əməkdaşları 24 saat fasiləsiz çalışaraq Ağdam kəndində mərmilərin zədələdiyi bütün xətləri bərpa etməklə sakinləri işıqsız qalmağa qoymayıb.



Prezident İlham Əliyevin birbaşa tapşırığı ilə "Azərişıq" ASC rəhbərliyi düşmənlə üz-üzə dayanan kənd sakinlərinə və eləcə də səngərdə əli tətikdə olan hərbçilərlə həmrəylik nümayiş etdirmək, onlara dövlətin dəstəyini göstərmək üçün Ağdam kəndində yenidənqurma işlərinə start verib.

Onu da qeyd edək ki, "Azərişıq" ASC-nin rəhbərliyi tez-tez cəbhə xətti boyunca yerləşən kənd və yaşayış məntəqələrinə səfər edir, yerlərdə görülən işlərə şəxsən nəzarət edirlər. Əsas məqsəd xüsusilə həssas bölgələrdə yaşayan abonentlərimizə hər zaman dəstək olmaqdır.

# Azərbaycan Respublikası Təhsil Nazirliyi açıq tender elan edir

Azərbaycan Respublikası Təhsil Nazirliyi potensial malgöndərənləri (podratçıları) müəllimlərin ixtisasartırma təlimlərinin təşkili üzrə iş və xidmətlərin satın alınması üçün dövlət satınalmalarının vahid internet portalı **(www.etender.gov.az)** vasitəsilə keçirilən aşağıdakı açıq tenderlərdə iştirak etməyə dəvət edir:

| Tenderlər | Təlimin adı | Təlimin müddəti (akademik saatla) | Müdavim sayı (nəfərlə) |
|---|---|---|---|
| **Tender 1** **İbtidai təhsil səviyyəsində dərs deyən müəllimlər üçün ixtisasartırma təlimləri** | İbtidai təhsil səviyyəsinin Azərbaycan bölməsində dərs deyən müəllimlər üçün ehtiyat dərslik komplekti əsasında Azərbaycan dili və riyaziyyat fənlərinin məzmunu və metodikası üzrə ixtisasartırma təlimi (distant) | 72 | 8500 |
| | İbtidai təhsil səviyyəsinin rus bölməsində dərs deyən müəllimlər üçün ehtiyat dərslik komplekti əsasında Azərbaycan dili (dövlət dili kimi) fənninin məzmunu və metodikası üzrə ixtisasartırma təlimi (distant) | 36 | 650 |
| | İbtidai təhsil səviyyəsinin rus bölməsində dərs deyən müəllimlər üçün ehtiyat dərslik komplekti əsasında riyaziyyat fənninin məzmunu və metodikası üzrə ixtisasartırma təlimi (distant) | 36 | 650 |
| | İbtidai təhsil səviyyəsində dərs deyən müəllimlər üçün ehtiyat dərslik komplekti əsasında ingilis dili fənninin məzmunu və metodikası üzrə ixtisasartırma təlimi (distant) | 30 | 1500 |
| **Tender 2** **Ehtiyat dərsliklərin istifadəsi ilə bağlı metodiki xidmətin təşkili (mentorluq) üzrə ixtisasartırma təlimi** | Ehtiyat dərsliklərin istifadəsi ilə bağlı metodiki xidmətin təşkili (mentorluq) üzrə ixtisasartırma təlimi | 18 | 4000 |
| **Tender 3** **Şagirdlərin yaş xüsusiyyətlərini nəzərə almaqla onların psixoloji rifahının yaradılması istiqamətində müəllimlərin peşəkar potensialının artırılması üzrə ixtisasartırma təlimləri** | Uşaq psixologiyasının əsasları üzrə ixtisasartırma təlimi (distant) | 24 | 1500 |
| | Məktəbdə sağlam sosial emosional mühitin formalaşdırılması üzrə ixtisasartırma təlimi (distant) | 30 | 3000 |

Bütün tenderlər üzrə ixtisasartırma təlimləri Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 164.1.13-cü maddəsinə əsasən ƏDV-dən azaddır.

Dövlət satınalmalarını tənzimləyən normativ hüquqi sənədlərdə göstərilən hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi dövlət mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan Respublikasında keçirilən dövlət satınalma prosedurlarında iddiaçı kimi iştirak edə bilərlər. Satınalan təşkilatdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olan İddiaçıların həmin təşkilat tərəfindən keçirilən satınalma prosedurlarında iştirakına yol verilmir.

Tenderdə iddiaçı kimi iştirak etmək istəyən malgöndərən (podratçı) **07 oktyabr 2020-ci il saat 16:00-dək** vahid internet portalı vasitəsilə aşağıdakı sənədləri təqdim edir:

1. Tenderdə iştirak etmək üçün ərizə (tenderin adı göstərilməklə) və hər bir tender üzrə **100 (bir yüz) manat** məbləğində heç bir halda geri qaytarılmayan iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi. İştirak haqqının ödənilməsi yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirilə bilər. Müsabiqəyə daxil olduqdan sonra "ASAN Ödəniş"lə ödə" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar. İştirak haqqı aşağıdakı hesaba köçürülməlidir:

**Bakı şəhəri, AZ1008, Xətai prospekti, 49, Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**VÖEN: 1500046011**
**DXA**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T. - CTREAZ22**
**Hesab №: AZ30CTRE00000000000002168501**
**Fond 7 Büdcə gəlirlərinin təsnifatı 142330 sair daxil olmalar.**

2. Malgöndərənin (podratçının) tam adı və rekvizitləri, qeydiyyatdan keçdiyi ölkə və hüquqi statusunu təsdiq edən sənədlər.
3. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış.
4. Malgöndərənin (podratçının) ixtisas uyğunluğu göstəricilərinin təsdiqi kimi pedaqoji heyət üçün ixtisasartırma təlimləri üzrə kənar sifariş əsasında icra edilmiş ən azı bir müqavilənin əslinin surəti.
5. Tender iştirakçısının satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmasının təsdiqi kimi kiçik, orta yaxud mikro sahibkarlıq subyekti olması haqqında müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş arayış.
6. Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış.
7. Tender iştirakçısının öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə məlumat.
8. Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat.
9. Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat.
10. Ali və ya əlavə təhsil müəssisəsi olması haqqında müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş sənəd.

İddiaçı iştirak etdiyi hər bir tender üzrə tender təklifini, təklifin dəyərinin 1 (bir) faizi həcmində olan bank təminatını "Dövlət satınalmaları haqqında" qanunun və əsas şərtlər toplusunun tələblərinə uyğun hazırlayaraq **15 oktyabr 2020-ci il saat 16:00-dək** vahid internet portalı vasitəsilə təqdim etməlidir. Tender təklifi açıldığı gündən sonra 30 (otuz) bank günü qüvvədə qalmalıdır. Tender təklifinin təminatı təklifin qüvvədə olma müddətindən 30 (otuz) bank günü çox olmalıdır. İddiaçılar hər bir tender üzrə yalnız bir təklif verə bilər. İddiaçıların tender təklifi, həmçinin tenderlə əlaqədar bütün yazışmalar və sənədlər Azərbaycan dilində tərtib edilməlidir.

Tender təklifləri **16 oktyabr 2020-ci il saat 16:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə vahid internet portalı vasitəsilə tanış ola bilərlər. Hər bir tender üzrə azı üç təklif təqdim olunduqda tender baş tutmuş hesab edilir. Üçdən az təklif daxil olan tender baş tutmamış elan edilir, həmin tenderin davamından imtina edilir.

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçirilir. Tenderdə iştirak, tender təkliflərinin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada vahid internet portalı vasitəsilə aparılır. Tenderin prosedur qaydaları, təkliflərin təqdim edilməsi və təkliflərin qiymətləndirilməsi və müqayisəsi əsas şərtlər toplusunda öz əksini tapır. İddiaçı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu, əsas şərtlər toplusunun məzmunu, o cümlədən iştirakçılar üçün təlimatlar, tender sənədlərinin formaları, müqavilə şərtləri, texniki şərtlər və s. ilə tanış olmalıdır. İddiaçının bu sənədlər və tender təklifi haqqında tam təsəvvürü, məlumatı olmaması və əsas şərtlər toplusunun tələblərinə uyğun gəlməyən təklif verməsi onun tender təklifinin kənarlaşdırılması ilə nəticələnə bilər. Tender təkliflərini qiymətləndirərkən və müqayisə edərkən tenderin əsas şərtlər toplusunda müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən yerli mallar (işlər və xidmətlər) üzrə tender təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni malların (işlər və xidmətlərin) təklif edilən qiymətinin 20 faizi həcmində güzəştli düzəliş tətbiq edilir.

Xidmətlər satınalma müqaviləsinin imzalanması tarixindən 25 dekabr 2020-ci il tarixədək başa çatdırılmalıdır.

Əlavə məlumat üçün tender üzrə əlaqələndirici Cəfərova Gülüstan Hidayət qızına müraciət etmək olar. Əlaqə məlumatları:
Ünvan: Bakı şəhəri, Xətai prospekti, 49
Telefon: 599-11-55 (daxili 5296)
**e-mail: gulustan.yafarova@edu.gov.az**

***Tender komissiyası***

# Azərbaycanda koronavirus infeksiyasından 138 nəfər sağalıb, 114 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 138 nəfər müalicə olunaraq sağalıb, 114 yeni yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 38 min 517 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 35 min 998 nəfər müalicə olunaraq sağalıb, 566 nəfər vəfat edib. Aktiv xəstə sayı 1953 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 20 min 29 test aparılıb. Dünənki test sayı isə 6921-dir.




# Ermənistanın növbəti təxribatı nəticəsində hərbi qulluqçumuz yaralanıb

Sentyabrın 14-də axşam saatlarında Ermənistan tərəfi Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonunun Hacallı kəndi istiqamətində növbəti dəfə təxribat törədib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, atəşkəs rejiminin düşmən tərəfindən kobud şəkildə pozulması nəticəsində gizir Əliyev Renat Eldar oğlu yaralanıb. Hərbi qulluqçuya dərhal tibbi yardım göstərilib. Onun həyatı üçün təhlükə yoxdur.

Bölmələrimizin cavab atəşi ilə düşmən susdurulub. Əməliyyat şəraiti ordumuzun nəzarəti altındadır.

# Sutka ərzində atəşkəs rejimi 30 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə atəşkəs rejimini 30 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Nerkin Karmirağbur, Ayqepar və Mosesqex kəndlərində yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Hacallı və Ağdam kəndlərində, Vayk rayonunun Xndzorud kəndində yerləşən mövqelərdən isə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Yuxarı Buzqov kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# “Azercell”dən Bilik Günü təbriki





“Azercell Telekom” MMC ölkəmizdə yeni dərs ilinin başlanması münasibətilə imtahanlarda fərqlənən abituriyentləri və şəhid övladlarını sevindirdi.



Ölkənin lider mobil operatoru “Azercell” hər zaman olduğu kimi, çətin pandemiya dövründə də buraxılış və qəbul imtahanlarına hazırlaşan abituriyentlərin səylərini qiymətləndirib. Dövlət İmtahan Mərkəzindən alınan siyahılar əsasında hər iki imtahandan ən yüksək nəticə göstərən 10 abituriyentə planşet hədiyyə olunub.

Şirkət həmçinin imtahanlarda ən çox bal toplayan 300 abituriyentin hər birinə xarici dil biliklərini gücləndirmək üçün məşhur Busuu mobil tətbiqetməsinə abunəlik kodları təqdim edib.

“Azercell” şirkəti 2016-cı il Aprel döyüşləri və bu ilin iyulunda Tovuzdakı hərbi əməliyyatlarda torpaq uğrunda şəhid olmuş hərbçilərin övladlarını da sevindirib. Belə ki, şirkət tərəfindən həmin döyüşlərdə həlak olmuş hərbçilərin tələbə övladları üçün aylıq təqaüd təsis edilib. “Azercell” onlara təhsil müddətinin sonunadək hər ay 300 manat məbləğində təqaüd verəcək.

Şirkət bu döyüşlərdə şəhid olmuş qəhrəman hərbçilərin birinci sinfə gedən övladlarını da təbrik edib. Bu bayram günündə birincilərə tədris materiallarını daha yaxşı mənimsəyə bilmək üçün planşetlər və müxtəlif növ dərs ləvazimatları hədiyyə olunub. Qeyd edək ki, şəhid övladlarının siyahısı “Zəfər” İctimai Birliyi tərəfindən təqdim olunub.

“Azercell” Bilik Günü münasibətilə bütün məktəbliləri və tələbələri təbrik edir, onlara yeni dərs ilində uğurlar arzulayır!

Gənclərin təhsil və inkişafına dəstək “Azercell Telekom”un sosial korporativ məsuliyyət strategiyasının ən vacib sahələrindəndir. Xatırladaq ki, şirkət pandemiya dövründə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən yaradılmış “Virtual Məktəb” portalı üzərindən onlayn tədris keçən 25000-dən artıq müəllim-pedaqoji heyətinin mobil nömrə balansına hədiyyə olaraq iki ay ərzində 5GB internet paketi yükləyib.


# OXUCULARIN NƏZƏRİNƏ!
# “AZƏRBAYCAN”

***qəzetinə abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *“Azərpoçt” ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*1 aylıq*
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**



## Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) İnsan resurslarının idarəedilməsi (HR Management) üzrə məsləhət xidmətlərinin satın alınması üçün açıq tender üsulu ilə elektron satınalma (eTender) keçirir

İddiaçılara təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) asan və ya elektron imzaları vasitəsilə daxil olsunlar və eTender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. eTenderdə iştirak etmək istəyən iddiaçılar 300 AZN məbləğində müəyyən edilən iştirak haqqını Portal üzərindən “ASAN ödəniş” sisteminə keçid edərək ARDNF-nin qeydiyyatdan keçmiş aşağıdakı hesabına köçürdükdən sonra tələb olunan sənədləri və tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Tələb olunan sənədlərin siyahısı Portalda göstərilmişdir.

**Azərbaycan Respublikasının Dövlət Neft Fondu**
**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165**
**VÖEN: 9900041961**
**H/h: AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T BIK: NABZAZ 2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və təklifin təminatı istisna olmaqla) 16 oktyabr 2020-ci il saat 10:00-a, tender təkliflərini (təklifin təminatı ilə birlikdə) 26 oktyabr 2020-ci il saat 18:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. Təkliflər 27 oktyabr 2020-ci il saat 10:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

eTenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***



## “Azərenerji” ASC
## “Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu” MMC 2020-ci il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul elan edir

“Azərenerji” ASC-nin Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 129№-li 01 iyul 2010-cu il tarixli qərarı ilə təsdiq edilmiş “Doktoranturanın yaradılması və doktoranturaya qəbul Qaydaları”na uyğun olaraq aşağıdakı ixtisaslar üzrə qəbul aparacaqdır:

3340.01 - Elektrotexniki sistemlər və komplekslər;
3341.01 - Elektrik stansiyaları (elektrik hissəsi) və elektroenergetik sistemlər;
3344.01 - Yüksək gərginliklər texnikası;
5312.01 - Sahə iqtisadiyyatı.

“Fəlsəfə doktoru” proqramı üzrə doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- **ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);**
- **kadrların şəxsi-qeydiyyat vərəqi;**
- **tərcümeyi-hal;**
- **iş yerindən xasiyyətnamə;**
- **3 ədəd fotoşəkil (3x4 sm ölçüdə);**
- **iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;**
- **çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;**
- **ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikası vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);**
- **şəxsiyyəti təsdiq edən sənədin surəti.**

“Elmlər doktoru” proqramı üzrə doktoranturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və “Fəlsəfə doktoru” (elmlər namizədi) elmi (alimlik) dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.

“Elmlər doktoru” proqramı üzrə doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- **ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);**
- **kadrların şəxsi-qeydiyyat vərəqi;**
- **tərcümeyi-hal;**
- **3 ədəd fotoşəkil (3x4 sm ölçüdə);**
- **iş yerindən xasiyyətnamə;**
- **əmək kitabçasından çıxarış;**
- **çap olunmuş elmi işlərin siyahısı;**
- **“Fəlsəfə doktoru” və ya “Elmlər namizədi” elmi (alimlik) dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti;**
- **ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti;**
- **şəxsiyyəti təsdiq edən sənədin surəti.**

**Qeyd:** Xarici dil (ingilis, alman və fransız dillərindən biri) fənnindən imtahan Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilir. Doktorantura və ya dissertanturaya sənədlərin qəbulu elan dərc olunduğu tarixdən 2020-ci il sentyabrın 25-dək aparılacaqdır.

***Ünvan:*** *AZ1012, Zərdabi pr., 94. Əlaqə telefonu: 050 228-84-48*



## Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq avtonəqliyyat vasitələrinin təmiri xidmətinin satın alınması üzrə kotirovka sorğusu elan edir

İddiaçılar satınalma prosedurunun predmetinə dair hazırlanmış əsas şərtlər toplusunu Sahibkarlığın İnkişafı Fondundan əldə edə bilərlər.

Təkliflər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Təkliflər 18 sentyabr 2020-ci il saat 12:00-a qədər qəbul olunur.

Ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxs Əyyub Abdullayevə müraciət edə bilərlər.

Ünvan: Bakı şəhəri, Yasamal rayonu, A.M.Şərifzadə küçəsi, 172
Telefon: (012) 310 23 02
Fax: (012) 4323717
e-mail: info@edf.gov.az

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin Tender komissiyası bildirir ki, malgöndərənin (podratçının) müraciətinə əsasən “Atributların, mükafatlandırma nişanlarının hazırlanması, təltif və mükafatlandırma ilə bağlı xərclər” maddəsi üzrə malların satın alınması məqsədilə 25 avqust 2020-ci il tarixdə elan edilmiş elektron tender üçün ilkin tələb olunan sənədlərin Portal vasitəsilə təqdim edilməsinin tarixi 25 sentyabr 2020-ci il saat 11:00-dək, tender təklifi və tender təklifinin bank təminatının təqdim edilməsinin tarixi 05 oktyabr 2020-ci il saat 17:00-dək, təkliflərin açılış tarixi 06 oktyabr 2020-ci il saat 11:00-dək uzadılmışdır.

***Tender komissiyası***



«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az


## ALLAH RƏHMƏT ELƏSİN!

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə və idarənin kollektivi Şeyxülislamın mühafizə xidmətinin rəisi Səxavəddin Sadıxova bacısı

SƏHİFƏ MİRVƏLİ QIZININ

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7572
Sifariş 2148
Qiyməti 40 qəpik